

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 05 (745) ▪ 4 fevral 2015 www.vergiler.az Qiymәti: 40 qәp.

# İlk Avropa Oyunlarına hazırlıq işləri yüksək keyfiyyətlə həyata keçirilir

Fevralın 3-də Azərbaycan Respublikasının Prezident İlham Əliyev və xanımı, «Bakı-2015» birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva «Bakubus» MMC-nin ilk Avropa Oyunları üçün avtobus deposu və təlim mərkəzində, Bakı İdman Sarayında görülən işlərlə tanış olublar.

Dövlətimizin başçısına avtobus deposu və təlim mərkəzində aparılan işlər barədə məlumat verilib. Bildirilib ki, əvvəllər bu ərazidən neftlə çirklənmiş torpaqların və məişət tullantılarının atılma məntəqəsi kimi istifadə olunub.

Ötən ilin sentyabrından 16 hektar ərazidə abadlıq və yenidənqurma işləri aparılıb, torpaq qatı təmizlənib. Ərazinin 6 hektarında sürücülər üçün Təlim Mərkəzi yaradılır. Burada praktiki təlimlər üçün beynəlxalq standartlara cavab verən yollar salınıb. Bu yollarda xüsusi döngələr və manevlərin yaradılması, müxtəlif yol şəraitini imitasiya edən avadanlığın quraşdırılması nəzərdə tutulur. Mərkəzdə minik və yük avtomobilləri, iritutumlu avtobuslar və motosiklet sürücüləri üçün peşəkar mütəxəssislər tərəfindən təlimlərin keçirilməsi planlaşdırılır. Yol hərəkəti təhlükəsizliyi üzrə təlim-tədris mərkəzi sürücülər üçün fərdi uyğunlaşdırılmış təlim proqramı təklif edir. Bunun da nəticəsində yolda hərəkət zamanı sürücülərin məsuliyyəti, diqqəti və təcrübələri artır. Bu məqsədlə tədris zamanı 5 təlim modulundan istifadə olunur. Burada 9 hektar ərazidə bir inzibati və dörd xidməti bina inşa edilir.



Layihəyə uyğun olaraq inşa edilən yanacaqdoldurma məntəqəsi, həmçinin təmir və texniki baxış binası da müasir səviyyədə qurulur. Burada bütün növ təmir və texniki baxışın həyata keçirilməsi mümkün olacaq. Binada 12 avtobusa eyni zamanda təmir və xidmət göstəriləcək. Burada işləyəcək ustalara avtobus istehsalçıları tərəfindən xüsusi treninqlər və peşəartırma kursları təşkil ediləcək. Binada növbəli iş rejimində çalışan usta və əməkdaşlar üçün istirahət otaqları da yaradılacaq, ekoloji məsələlərə xüsusi diqqət yetiriləcək. Avtoyuma məntəqəsində işlənmiş suyun və ümumilikdə, ərazidə yağış sularının 85 faizi xüsusi qurğuda təmizlənərək təkrar istifadə ediləcək. Layihə fevralın sonunadək yekunlaşdırılacaq.

Ümumilikdə, «Bakubus» MMC-də 900-ə yaxın iş yerinin açılması nəzərdə tutulur. İşçilərin 650 nəfərini sürücülər təşkil edəcək. Avtobus parkı fəaliyyətini beynəlxalq təcrübəyə əsasən quracaq. Sürücülərə xüsusi geyim formaları veriləcək, avtobuslar şəhərə çıxmazdan əvvəl texniki baxışdan keçiriləcək.

Prezident İlham Əliyevə Zığ gölünün kompleks bərpası layihəsi çərçivəsində görülən işlər barədə də məlumat verilib. Bildirilib ki, layihə dövlətimizin başçısının «Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və ondan istifadə sahəsində əlavə tədbirlər haqqında» 2014-cü ildə imzaladığı Sərəncama əsasən həyata keçirilir. Burada işlərin görülməsi İqtisadiyyat və Sənaye Nazirliyinə həvalə edilib. Qısa müddətdə gölün mühafizəsi təmin olunub, buraya məişət tullantılarının atılmasının qarşısı alınıb. Layihə çərçivəsində çirklənmə mənbələrinin, istismara yararsız neft quyularının və digər qurğuların ləğv edilməsi, gölün səviyyəsini saxlamaq üçün çirkab sularının təmizlənərək buraya axıdılması, dib çöküntülərinin zərərsizləşdirilməsi işlərinin aparılması nəzərdə tutulur. Beləliklə, gölün ərazisi təbii məcrasına uyğunlaşdırılacaq. Hazırda gölün müfəssəl layihəsinin hazırlanması üçün beynəlxalq məsləhətçi şirkətlərin işə cəlb olunması ilə bağlı tədbirlər görülür. Gölün istifadəsi və mühafizəsi sahəsində idarəetmənin həyata keçirilməsi ilə əlaqədar təşkilati-təsərrüfat işlərinin görülməsi, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi «Təmiz Şəhər» ASC-yə həvalə edilib.

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ilk Avropa Oyunlarında iştirak edəcək yüksək səviyyəli qonaqların daşınması üçün alınan «Mercedes» markalı mikroavtobuslara baxıblar. Prezident İlham Əliyevə «Bakubus» MMC-nin «IVECO» markalı yeni avtobusları barədə də məlumat verilib. Qeyd olunub ki, ilkin mərhələdə Fransa istehsalı olan 302 avtobus alınıb. Yeni avtobuslarda gediş haqqı kartla ödəniləcək. Bu kartdan həm də metroda istifadə olunacaq. Avtobuslardakı bütün materiallar yanğına, donmaya və buxarlanmaya davamlıdır. Təhlükəsizliyin təmin edilməsi məqsədi ilə avtobusların salonlarında kameralar quraşdırılıb, qapılar xüsusi sistemlə təchiz edilib. Bu nəqliyyat vasitələrində uşaq və əlillər üçün xüsusi oturacaqlar qoyulub. Avtobusların daha bir üstünlüyü isə onların sıxılmış təbii qazla işləməsidir. Bu da ekoloji baxımdan çox əhəmiyyətlidir.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı müvafiq tapşırıq və göstərişlərini verib.

Həmin gün Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı İdman Sarayında həyata keçirilən əsaslı yenidənqurma işlərinin gedişi ilə tanış olublar.

Qeyd olunub ki, bina 1974-cü ildə inşa edilib və hazırda müasir tələblərə uyğun yenidən qurulur. Ötən ilin yanvarında başlayan təmir işlərindən sonra binada Olimpiya və Paralimpiya oyunlarının keçirilməsi üçün bütün şərait yaradılacaq, ilk Avropa Oyunlarının badminton və stolüstü tennis yarışlarının burada keçirilməsi nəzərdə tutulur.

Dövlətimizin başçısı və xanımı əsas idman zalında aparılan təmir işləri ilə də maraqlanıblar. Bildirilib ki, tamaşaçı yerlərinin sayının artırılması üçün zalda əlavə olaraq ikitərəfli tribuna inşa edilib. Zalda oturacaqların sayı təmirdən əvvəl 1100 idisə, yenidənqurmadan sonra bu rəqəm 1736-ya çatdırılıb. Badminton və stolüstü tennis yarışlarının keçirildiyi yerlərlə bağlı Beynəlxalq Federasiyaların tələbləri nəzərə alınaraq burada xüsusi idarəetmə sistemi, hava axınını üfüqi istiqamətdə bərabər şəkildə tənzimləyən havalandırma sistemi qurulub.

Dövlətimizin başçısı İlham Əliyev Bakı İdman Sarayında işlərin vaxtında və yüksək keyfiyyətlə başa çatdırılmasına dair müvafiq tapşırıq və tövsiyələrini verib.

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyul tarixli 1654 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Vergilər Nazirliyinin Strukturu»nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyul tarixli 1654 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 718) ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Vergilər Nazirliyinin Strukturu»nun 3-cü hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 2 fevral 2015-ci il.*

# Dünyanın ən mükəmməl layihələrindən biri

Yanvarın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Park Chalet Shahdag» otelinin və «Şahdağ» qış-yay turizm kompleksinin 1 nömrəli kanat yolunun və xizək enişinin açılışında iştirak ediblər. Dövlətimizin başçısına məlumat verilib ki, «Şahdağ» qış-yay turizm kompleksi dünyadakı bu tipli komplekslərdən nadirliyi və universallığı ilə fərqlənir. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə Şahdağ Milli Parkının ərazisində yerləşən kompleksin tikintisinin hazırlıq işlərinə 2006-cı ildən başlanılıb. Həmin il keçirilən tenderdə dünyanın aparıcı şirkətləri qalib gəlib. Bu kompleksin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. O vaxtdan görülən işlər nəticəsində «Şahdağ» qış-yay turizm kompleksinə çəkilən avtomobil yolu genişləndirilib, körpülər tikilib, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilib. Dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdə yerləşən turizm kompleksinin ərazisi 2058 hektardır.

Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən olan «Şahdağ» qış-yay turizm kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir və ilboyu fəaliyyət göstərmək iqtidarındadır. Bu layihənin reallaşdırılması Azərbaycanda dağ-xizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açır. Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan «Şahdağ» qış-yay turizm kompleksində inşa edilən otellər bu istirahət məkanına marağı daha da artırır. Qonaqların istirahətinin yüksək səviyyədə təmin olunduğu bu otellərdə yaradılan şərait bir daha təsdiqləyir ki, bu gün ölkəmizdə turizm sektorunun inkişafına xüsusi fikir verilir.

Dövlətimizin başçısı 1 nömrəli kanat yolunu işə salıb. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kanat yolunu sınaqdan keçiriblər. Qeyd edilib ki, kanat yollarının çəkilişi qış turizm kompleksinin əsas infrastrukturlarından sayılır və bu işi böyük təcrübəsi olan Avstriya şirkəti həyata keçirir. Beləliklə, «Şahdağ» qış-yay turizm kompleksi qonaqlara il boyu sonsuz həyəcanlı idman və əyləncə növləri təklif edir. Qonaqların burada bənzərsiz təbiət gözəlliyinin mərkəzində, dağ havasının təravətində müxtəlif əyləncə növlərinin əhatəsində olmaq şansı var. Burada xizəklə sürüşmək üçün 19-dan çox yamacın yaradılması planlaşdırılıb. Xizəksürmə məktəbi müxtəlif kurslar da təklif edir. Kompleksdə hər yaş kateqoriyasından olan insanlara müxtəlif yay əyləncələri də təklif ediləcək. Bölgəni yenidən kəşf etmək istəyənlər, macəra axtarışında olanlar üçün gələcəkdə rafting, paraşütlə tullanma, qayaya dırmanma, velosipedlə gəzinti, göldə üzgüçülük və başqa idman əyləncələri də təşkil olunacaq. Bundan əlavə, burada böyük qolf sahəsinin, maraqlı aqvaparkların və hovuzların da tikilməsi planlaşdırılıb.

Dövlətimizin başçısına məlumat verilib ki, paytaxt Bakı ilə yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına göstərilən diqqətin nümunəsinə çevrilib. Bu çərçivədə «Şahdağ» qış-yay turizm kompleksində inşa edilən otellərdə təqdim edilən yüksək şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını bir daha təsdiqləyir və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını göstərir.

«Park Chalet Shahdag» oteli Bakıdan 210 kilometr şimal qərbdə yeganə alp üslublu dəbdəbəli məkandır. Əzəmətli dağlarla əhatə olunan otelin 164 eleqant qonaq otağı var. Bildirilib ki, bu otel yeni yaradılan «Absheron Hotel Group» şirkətinin ikinci otelidir. İlk otel olan «Pik Palace Şahdağ»ın açılışı 2013-cü ilin dekabrında Prezident İlham Əliyev tərəfindən həyata keçirilib. «Park Chalet» otelinin dizaynı ənənəvi Avropa üslubundan ilhamlanaraq, ABŞ-da Aspen xizək stilli otellərin üslubunu da özündə əks etdirir. «Park Chalet» oteli «Marriott» brendinin xüsusi portfeli sayılan eksklüziv və müstəqil lüks otel və kurortların cəmləşdiyi «Autograph Collection»un rəsmi üzvüdür. «Park Chalet»in bu qrupa daxil olması təsadüfi deyil. Belə ki, bu qrupa namizəd otellər beynəlxalq standartlara cavab verməsi, yerləşdiyi ərazi, orijinallığı və digər spesifik xüsusiyyətləri ilə seçilən otellərdir.

Prezident İlham Əliyev otelin rəmzi açılışını bildirən lenti kəsib. Otelin açılışı münasibətilə kollektivi təbrik edən dövlətimizin başçısı bildirib ki, hər il Şahdağda bir-birindən gözəl yeni otellər açılır. Bu otel - «Park Chalet» oteli sayca beşinci oteldir. Burada bütün lazımi şərait yaradılıb, otel ən yüksək standartlara cavab verir. Həm xarici görünüşü, həm daxili tərtibatı, bütün xidmət sahələri ən yüksək səviyyədədir.

**Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə hər il fevralın 11-də vergi xidməti işçilərinin peşə bayramı qeyd olunur. Bu əlamətdar gün münasibətilə vergi xidməti əməkdaşlarını ürəkdən təbrik edir, ölkəmizin iqtisadi qüdrətinin daha da yüksəlişi naminə şərəfli işlərində onlara uğurlar arzulayırıq.**

2 Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti yaradılıb

3 İqtisadi inkişafa xidmət edən vergi sistemi

4 Azərbaycanın beynəlxalq investisiya reytinqi sabitdir

5 Elektron ticarətdə ödəniş sistemləri

# Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti yaradılıb

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində ölkə iqtisadiyyatının dinamik inkişafı vergi sisteminin daim təkmilləşdirilməsini tələb etdiyindən Vergilər Nazirliyinin ayrı-ayrı struktur vahidlərinin fəaliyyətinin daha səmərəli təşkil olunması, vergi orqanlarının nəzarət funksiyalarının həyata keçirilməsi mexanizminin müasir tələblərə uyğunlaşdırılması məqsədilə, vergilər naziri Fazil Məmmədovun əmrinə əsasən Vergilər Nazirliyi yanında Vergi Auditi Departamenti və Bakı Şəhər Vergilər Departamenti ləğv edilərək, həmin departamentlərin ştat vahidlərinin hesabına Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti yaradılmış, Departamentin Əsasnaməsi, tərkib quruluşu, ştat vahidlərinin sayı və bölgüsü təsdiq edilmişdir.

# Operativ tədbirlər görülür

2015-ci ilin yanvar ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 4940 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkarlanmışdır. 812 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 193 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 611 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edimişdir. 198 vergi ödəyicisi tərəfindən 251 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 209 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 101 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış mallar olduğu aşkarlanmışdır.

Aşkar edilmiş nöqsanlarla bağlı tədbirlər görülmüşdür.

**xarici mətbuat səhifələrində**

# «The New York Times» qəzetində Ermənistan-Azərbaycan münaqişəsi haqqında məqalə dərc olunub

*ABŞ-ın tanınmış mətbu orqanında Azərbaycanın Dağlıq Qarabağ regionunda Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində silahlı toqquşmaların davam etməsi barədə məqalə yerləşdirilib.*

Məqalənin müəllifi Devid Qerşenqorn yazır ki, son aylar Ermənistan və Azərbaycan arasında hərbi münaqişə kəskinləşib, nəticədə hər iki tərəfdən hərbi qulluqçular həlak olub. Jurnalist xatırladır ki, Ermənistanın pilotsuz təyyarəsi Ağdam rayonunun yaxınlığında Azərbaycan ordusu tərəfindən vurulub. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilənə qədər Ağdam şəhərində 40 minədək azərbaycanlı yaşayıb.

Sülh danışıqlarının təfərrüatına toxunan müəllif yazır ki, Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərindən Ermənistanı öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmağa məcbur etmək üçün ölçü götürməyi tələb edib. D.Qerşenqorn vurğulayır ki, 1994-cü ildə atəşkəs haqqında sazişin imzalanmasından əvvəl Ermənistan tərəfindən işğal olunmuş torpaqlar Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin beşdəbir hissəsini təşkil edir.

Məqalədə hər iki tərəfin mövqeyi göstərilib. Azərbaycanın Dağlıq Qarabağ regionunda vəziyyəti gözdən keçirən müəllif yazır ki, region Ermənistanın «oyuncaq» qurumudur. Buranın əhalisi xarici ölkələrə Ermənistan pasportu ilə gedir və rəsmi şəxslərin bir çoxu, o cümlədən Ermənistan prezidenti Serj Sarkisyan Dağlıq Qarabağda dünyaya gəlib.

D.Qerşenqorn öz yazısında Ermənistanın təcavüzü nəticəsində doğma yurd-yuvalarından didərgin salınmış azərbaycanlı qaçqınların və məcburi köçkünlərin ağır şəraitdə yaşamasından söz açır. Erməni qaçqınlardan da müsahibə alan jurnalist qeyd edir ki, keçmiş Bakı sakini, hazırda Xankəndi bazarında xırdavat satan İrina Xaçaturyan Bakıya qayıtmaq arzusundadır.

# «The Washington Times» qəzeti Azərbaycana xüsusi buraxılış həsr edib

*«Müstəqilliyini bərpa etdikdən sonra çiçəklənən ABŞ müttəfiqi» başlıqlı buraxılışda yer alan yazıların müəllifləri Konqresin Nümayəndələr Palatasının üzvləri Rendi Veber və Robert Aderholt, Azərbaycanın Birləşmiş Ştatlardakı səfiri Elin Süleymanov, «Caspian Group Holdings» şirkətinin baş icraçı direktoru Rob Sübhani, tanınmış tədqiqatçı Aleks Vatanka və «The Washington Times»ın redaksiya heyətinin üzvləridir.*

Məqaləsində Azərbaycanın hansı səbəblərdən ABŞ üçün əhəmiyyət kəsb etməsi ilə bağlı suala cavab verən R.Veber ölkəmizin mühüm geosiyasi mövqeyini önə çəkərək, Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni vurğulayır, hərbçilərimizin beynəlxalq sülhməramlı əməliyyatlarda iştirakını və Əfqanıstanda ABŞ silahlı qüvvələri ilə əməkdaşlığımızı təqdir edir. Konqresmen Veber ABŞ-ın Azərbaycanla münasibətləri gücləndirməsinin vacibliyini vurğulayır.




Azərbaycanı ABŞ-ın strateji müttəfiqi kimi xarakterizə edən Robert Aderholt Avrasiya məkanında bu ölkənin əhəmiyyətini şərtləndirən amilləri oxucuların diqqətinə çatdırır. Azərbaycana səfərləri və Prezident İlham Əliyevlə görüşünü xatırladan konqresmen yazır ki, daha sabit və firavan Azərbaycan daha sabit və firavan Cənubi Qafqaz üçün ümid verir.

Səfir E.Süleymanov isə yazısında Azərbaycan xalqının 20 Yanvar hadisələrindən başıuca çıxaraq, azadlıq və müstəqillik arzusuna çatdığını bildirir. O, eyni zamanda, güclü tolerantlıq ənənələrinə malik Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyətin müxtəlif təbəqələrinin möhkəm birliyini təmin edən ənənələrin davam etdirildiyini vurğulayır.

Rob Sübhani ABŞ-ın etibarlı tərəfdaşı olan Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi uğurlara nəzər salır. Aleks Vatanka isə Birləşmiş Ştatları Azərbaycana münasibətdə daha ardıcıl siyasət yürütməyə çağırır.

Məqalələrin birində oxuculara Azərbaycanın birinci Avropa Oyunları kimi mühüm bir tədbirə ev sahibliyi edəcəyi barədə məlumat verilir, bu Oyunların uğurla keçməsi üçün görülən hazırlıq işlərindən bəhs edilir.

Bundan əlavə, qəzetdə ölkəmizin turizm potensialı, o cümlədən «Şahdağ» Turizm Kompleksi, Tovuz rayonu, habelə yəhudi icmasının məskunlaşdığı Qırmızı Qəsəbə haqqında yazılar da yer alır və turistlərin Azərbaycana səfər etmələri üçün 10 səbəb sadalanır. Həmçinin «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin beynəlxalq fəaliyyəti və yeni uçuşlar, xüsusilə Bakı və Nyu-York arasında birbaşa hava əlaqəsi barədə məlumatlar diqqətə çatdırılır.

Bundan başqa, qəzetdə AZPROMO-nun dəstəyi ilə ABŞ bazarına ixrac olunan yüksək keyfiyyətli qida məhsulları barədə məlumat təqdim edilir.

Ümumilikdə, 12 səhifəlik xüsusi buraxılışda 16 məqalə və məlumat dərc edilib.

# Əmlak və torpaq vergiləri

## Vergi Məcəlləsinə olunmuş sonuncu əlavə və dəyişikliklər torpaq və əmlak vergilərini də əhatə edib

***Əmlak vergisi: dəyişiklikdən əvvəl və sonra***

Əmlak vergisi üzrə Vergi Məcəlləsinin 198.1.1, 199.4.3, 200.1 və 200.2-ci maddələrinə dəyişiklik edilib. Fiziki şəxslərin əmlak vergisi indiyə kimi binaların inventar dəyərindən hesablanırdı. Əmlak vergisinin hesablanması məqsədilə fiziki şəxslərin mülkiyyətində olan binaların inventar dəyəri Nazirlər Kabinetinin 28 iyun 1999-cu il tarixli 110 saylı qərarı ilə təsdiq edilmiş lFiziki şəxslərin mülkiyyətində olan binaların inventar dəyərinin hesablanması Qaydası» ilə müəyyənləşdirilirdi. Lakin əksər bələdiyyələr müxtəlif səbəblər üzündən indiyə qədər bu qərarı lazımi səviyyədə tətbiq edə bilmirdi. Dəyişikliklərin müsbət tərəflərindən biri odur ki, fiziki şəxslərin əmlak vergisindən yayınma ehtimalı azalacaq. Bələdiyyələr tərəfindən verginin hesablanmasında və toplanmasında mövcud çətinliklərin aradan qalxmasına əlverişli şərait yaranacaqdır ki, bu da bələdiyyə büdcələrinin formalaşmasına öz təsirini göstərəcək.

Dəyişiklikdən əvvəl binaların inventarlaşdırılmış dəyərinin 5000 manatadək olan hissəsi üçün vergi tutulmurdu, 5000 manatdan çox olan məbləğdən isə 0,1% vergi hesablanırdı. Bundan sonra binaların yaşayış sahələrinin 30 kvadratmetrədək olan hissəsi vergidən azad olacaq. Amma bu güzəşt yalnız yaşayış sahələrinə aid edilir, qeyri-yaşayış sahələrinə isə güzəşt nəzərdə tutulmayıb. Bakı şəhərində 1 kvadratmetr üçün - 0, 4 manat, Gəncə, Sumqayıt şəhərlərində və Abşeron rayonunda 1 kvadratmetr - 0,3 manat, digər şəhər və rayon mərkəzlərində1 kvadratmetr - 0,2 manat, rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) 1 kvadratmetr üçün 0,1 manat müəyyənləşib.

Binanın şəhərin mərkəzində və mərkəzdən kənar yerləşməsi ilə bağlı 0,7-dən aşağı olmayan və 1,5-ə qədər əmsal tətbiq olunur. Bu o deməkdir ki, şəhərin mərkəzində olan binaya görə müəyyən edilmiş dərəcə ilə hesablanmış əmlak vergisinə əlavə 1,5 əmsal tətbiq olunaraq vergi artırılacaq.

***Torpaq vergisi üzrə dəyişikliklər hansı torpaq sahələrinə şamil edilir?***

Torpaq vergisi ilə bağlı dəyişikliklər kənd təsərrüfatı təyinatlı torpaqlar deyil, Vergi Məcəlləsinin 206.3-cü maddəsində nəzərdə tutulan torpaq sahələri şamil edilir. Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı yaşayış fondlarının həyətyanı sahələri və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə yeni vergitutma mexanizmi müəyyən edilib. Burada vergi dərəcələri torpağın sahəsinə (100 kvadratmetr) bağlıdır və təkcə regionlar üzrə deyil, həm də 10 min kvadratmetr (1 hektar) sahədən asılı olaraq diferensiallaşdırılıb.




Yaşayış fondları, həyətyanı sahələr və vətəndaşların bağ sahələrinin tutduğu torpaq sahələri 10 min kvadratmetrədək olduqda torpaq sahəsinin hər 100 kvadratmetrinə görə illik vergi Bakı şəhərində 0,6 manat, 10 min kvadratmetrdən yuxarı hissəsi üçün isə hər 100 kvadratmetrinə görə 1,2 manat müəyyən edilib. Gəncə, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonunun qəsəbə və kəndlərində bu rəqəmlər müvafiq olaraq 0,5 və 1 manat, digər şəhər və rayon mərkəzlərində 0,3 və 0,6 manat təşkil edəcək. Rayon tabeliyində olan şəhərlər, qəsəbələr və kəndlər üzrə hər 100 kvadratmetrə görə illik vergi 0,1 və 0,2 manat olacaq.

Kommersiya xarakterli (sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər) xüsusi təyinatlı torpaqlar 10 min kvadratmetrədək olduqda, torpaq sahəsinin hər 100 kvadratmetrinə görə illik vergi Bakı şəhərində 10 manat, 10 min kvadratmetrdən yuxarı hissəsi üçün isə hər 100 kvadratmetrinə görə 20 manat müəyyən edilib. Gəncə, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonunun qəsəbə və kəndlərində bu rəqəmlər müvafiq olaraq 8 və 16 manat, digər şəhər və rayon mərkəzlərində 4 və 8 manat təşkil edəcək. Rayon tabeliyində olan şəhərlər, qəsəbələr və kəndlər üzrə hər 100 kvadratmetrə görə illik vergi 2 və 4 manat olacaq.

Qeyd etmək lazımdır ki, vergi qanunvericiliyinə əsasən, əmlak vergisi mülkiyyəti təsdiq edən sənədlər, torpaq vergisi isə mülkiyyət və istifadə hüququnu təsdiq edən sənədlər əsasında hesablanır.

**AYTƏN**

# Daşınan əmlakın əsaslı kreditləşməsi maliyyə imkanlarını genişləndirəcək

Yanvarın 28-də Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) və Dünya Bankı Qrupunun üzvü, İsveçrənin İqtisadi məsələlər üzrə Dövlət Katibliyi (SECO) tərəfindən maliyyələşdirilən Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) Azərbaycanda və Orta Asiyada «Maliyyə infrastrukturunun təkmilləşdirilməsi üzrə məsləhət xidmətləri» layihəsi çərçivəsində «Daşınan əmlak üzrə əsaslı kreditləşmə» adlı konfrans keçirilib. Daşınan əmlak üzrə əsaslı kreditləşməni mək üçün bizneslərin maliyyə vəsaitlərinə çıxış imkanlarının yaxşılaşdırılması istiqamətində səylərini birləşdirib.

Tədbirdə çıxış edən ASK-nın prezidenti Məmməd Musayev ölkəmizdə vətəndaşlara verilən kreditlərin, əsasən, daşınmaz əmlak üzərindən həyata keçirildiyini vurğulayıb. Lakin bu da müəyyən problemlər ortaya çıxarır. O, Dünya Bankı ilə qurum arasında formalaşdırılan əməkdaşlığın mövcud problemləri aradan qaldıracağını qeyd edib: «Bu gün Azərbaycan bazarında müştərilərə verilən kreditlər, əsasən, daşınmaz əmlak formasında təqdim olunan girovla təmin edilir və bu, maliyyə sektorunun bu seqmentinin inkişafında müəyyən problemlər yaradır. ASK-nın bu sahədə Dünya Bankı ilə əməkdaşlığa başlaması mövcud problemləri aradan qaldırmağa dəstək verəcək».

**Azərbaycan bazarında müştərilərə verilən kreditlər, əsasən, daşınmaz əmlak formasında təqdim olunan girovla təmin edilir və bu, maliyyə sektorunun bu seqmentinin inkişafında müəyyən problemlər yaradır**

M.Musayev onu da bildirib ki, Azərbaycanda girov məqsədləri üçün geniş istifadə olunmayan daşınan aktivlər yaxşı likvidliyə malikdir və maliyyə məlumatı zəif olan müəssisələrin maliyyə vəsaitlərinə çıxış imkanlarını artıra bilər: «Bu konfrans daşınan əmlak üzrə əsaslı kreditləşmə sahəsində beynəlxalq qabaqcıl təcrübələrin Azərbaycanda tətbiqini müzakirə etmək üçün yaxşı platformadır. Ölkəmizdə kreditlərin çoxu torpaq və digər daşınmaz əmlak təminatı əsasında verilir. Bu da girov kimi təklif etməyə daşınmaz əmlakı olmayan kiçik bizneslərin əksəriyyəti üçün mühüm məhdudiyyətlər yaradır».

Daşınan əmlak üzrə əsaslı maliyyələşmə sahəsində beynəlxalq mütəxəssis Saymon Tompson qeyd edib ki, bu konfrans Azərbaycanda sahibkarların maliyyə vəsaitlərinə çıxış imkanlarının artırılması istiqamətində birgə həyata keçirdiyimiz tədbirlərdəndir. Kiçik bizneslərə məxsus olan təşviq etmək məqsədi daşıyan bu təşəbbüs maliyyə təşkilatlarından alınan kreditlər üçün girov olaraq maşın, avadanlıq, malməhsul ehtiyatları, dövriyyədəki mallar, həmçinin debitor borclar kimi daşınan əmlaklardan istifadə etməyə imkan verəcək.

Tədbirdə daşınan əmlaka əsaslanan kreditləşmə və kreditləşmənin həcminin artmasının ölkə iqtisadiyyatında kiçik və orta sahibkarların maliyyə resurslarına, bank portfelinin həcminin böyüməsinə birbaşa təsiri kimi məsələlər müzakirə olunmuşdur. ASK və IFC kiçik bizneslərin böyüməsi, yeni iş yerlərinin açılması, iqtisadi artıma töhfə verdaşınan əmlakların dəyərindən istifadə həmin biznes müəssisələrinə və həmçinin kredit təşkilatlarına çox müsbət təsir edə bilər. Bu, kiçik şirkətlər üçün yeni maliyyə imkanlarını, kreditorlar üçün öz müştəri bazalarını artırmağa şərait yarada bilər.

Beynəlxalq Maliyyə Korporasiyasının təminatlı əqdlər üzrə mütəxəssisi Aqil Abdullayev daşınan əmlaka tətbiq ediləcək kreditləşmənin əhalinin iqtisadi inkişafını sürətləndirəcəyini deyib. Bunun üçün banklar və digər kredit təşkilatlarının bu sahəyə marağının artmasına nail olmaq gərəkdir.

**FƏXRİYYƏ**

# İqtisadi inkişafa xidmət edən vergi sistemi



Akif MUSAYEV,
vergilər nazirinin vergi siyasəti məsələləri üzrə müşaviri

Azərbaycanda milli vergi sisteminin formalaşdırılması, inkişaf etdirilməsi və modernləşdirilməsi zaman baxımından o qədər də uzun olmayan bir dövrü əhatə etsə də, bu tarix milli vergi xidmətinin müasir inkişafını təmin edən, hər bir ili islahatlarla zəngin olan mühüm inkişaf dövrüdür.

Ölkəmizdə sürətli iqtisadi inkişafın təmin olunmasında və gələcək nailiyyətlərin təməlinin yaradılmasında əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş vergi siyasətinin müstəsna rolu olmuşdur.

Ulu öndər Nazirlər Kabinetinin 1998-ci il noyabrın 6-da keçirilmiş geniş iclasındakı yekun nitqində dövlət müstəqilliyi əldə olunduqdan sonra vergitutma sahəsində qəbul edilmiş çoxsaylı normativ aktların Azərbaycanın vergi sisteminin ayrı-ayrı sahələrini əhatə etdiyindən vergi sisteminin idarə olunmasında bir sıra problemlərin yaranmasını, vergi qanunvericiliyində mövcud olan boşluqların istər vergi ödəyicilərinin, istərsə də vergi xidməti orqanlarının fəaliyyətində çətinliklər yaratdığını, vergitutmanın qanunvericilik və metodoloji bazasının təkmilləşdirilməsinin zəruriliyini qeyd edərək, qısa müddətdə Vergi Məcəlləsinin layihəsinin hazırlanması ilə əlaqədar hökumətə tapşırıqlar verdi.

«Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik» - deyən Heydər Əliyev vergi sisteminin təkmilləşdirilməsi, onun vahid normativ-hüquqi bazasının yaradılmasının vacibliyi ilə yanaşı, Vergi Məcəlləsində vergi dərəcələrinin aşağı salınması və vergi yükünün azaldılması hesabına vergitutma bazasının genişləndirilməsi, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılması, kiçik və orta sahibkarlıq üçün əlverişli vergi mühitinin yaradılması, habelə vergi xidməti orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində məqsədyönlü işlərin aparılmasının vacibliyini də həmişə xüsusi olaraq vurğulayırdı.

2000-ci ilin iyul ayında Vergi Məcəlləsinin layihəsi geniş müzakirələrdən sonra Milli Məclis tərəfindən qəbul edildi və 1 yanvar 2001-ci il tarixdən qüvvəyə mindi. Vergi Məcəlləsi ölkəmizdə vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyənləşdirdi.

Vergi sisteminin vahid normativ-hüquqi bazasını təşkil edən Vergi Məcəlləsinin tətbiqi nəticəsində vergi qanunvericiliyində olan boşluqlar, ziddiyyətlər və pərakəndəlik aradan qaldırıldı. Vergilərin sayı 14-dən 9-a endirildi, vergilərin dərəcələri, tətbiq olunan maliyyə sanksiyalarının məbləğləri aşağı salındı və vergi ödəyicilərinin hüquqları genişləndirildi.

Ölkədə müasir tələblərə cavab verən, beynəlxalq normalara uyğun çevik və səmərəli vergi inzibatçılığını həyata keçirən dövlət orqanının yaradılması məqsədilə Azərbaycan Prezidentinin 11 fevral 2000-ci il tarixli fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyinin bazasında dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin vaxtında və tam ödənilməsini təmin edən, bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı - Vergilər Nazirliyi yaradıldı.

Sonrakı dövrlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında vergi inzibatçılığının modernləşdirilməsi ilə bağlı bir sıra uğurlu islahatlar həyata keçirildi. Dövlət başçısının 2005-ci il 12 sentyabr tarixli sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı (2005-2007-ci illər)»nın reallaşdırılması nəticəsində vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi və vergi ödəyicilərinin hüquqlarının etibarlı qorunmasının təmin olunması, vergi dələduzluğu və vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi, vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması, müasir tələblərə cavab verən kompüter informasiya sisteminin yaradılması istiqamətlərində mühüm işlər görüldü.

Azərbaycanda bir çox ölkələrin vergi orqanlarında maraq doğuran özünəməxsus vergi sistemi formalaşdırılıb. Aparılan vergi siyasəti bir tərəfdən tətbiq olunan vergilərin və onların dərəcələrinin iqtisadiyyatda fiskal situasiyanın nəticələrinə obyektiv qiymət verilməsinə, digər tərəfdən isə vergi sisteminin səmərəli, ədalətli, asan qavranılan və istifadə üçün sadə olmasına şərait yaratdı. Tam əminliklə deyə bilərik ki, hazırda ölkəmizin sosial qanunçuluğa və ədalətə söykənən iqtisadi sisteminə adekvat olan bir vergi sistemi formalaşıb.

*Vergi sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən bütün tədbirlərdə dövlət, biznes və istehlakçılar arasında qarşılıqlı etibar və korporativ sosial maraqların təmin edilməsi vergi siyasətinin əsas vəzifələrindən biri olub*

Bu gün Azərbaycanın vergi siyasəti institutları vergi potensialının və vergi gəlirlərinin monitorinqini, vergi siyasətinin iqtisadi, struktur və gəlir aspektlərinin qiymətləndirilməsini, vergilər toplananadək və toplandıqdan sonra xərclənməsinin təhlilini aparır, aktiv vergi siyasətinin formalaşması, vergi potensialının qiymətləndirilməsi, proqnozlaşdırılması üzrə və bunlarla məhdudlaşmayan geniş spektrdə ex-post və ex-ante təhlillər əsasında qəbul olunmuş qərarların ölkədə sahibkarlıq mühitinə təsiri nəzərə alınmaqla qanunvericilik və inzibatçılıq sahəsində lazımi tədbirlər həyata keçirilər.

Aparılan vergi siyasəti əsasən dövlət vergilərinin və digər büdcə daxilolmalarının düzgün hesablanmasına, onların vaxtında və tam həcmdə dövlət büdcəsinə köçürülməsinə, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsinə, vergi nəzarətinin gücləndirilməsinə, vergi ödəyicilərinə xidmətin keyfiyyətinin yüksəldilməsinə, ölkənin vergi sisteminin beynəlxalq vergi sisteminə inteqrasiya olunmasına və vergi sistemində insan resurslarından istifadənin səmərəliliyinin artırılmasına yönəldilmişdir.

İnnovasiya və bilik iqtisadiyyatının inkişafının stimullaşdırılmasının zəruriliyi nəzərə alınaraq, innovativ sahibkarlığa və elmtutumlu məhsulların, yüksək texnologiyaların istehsalına investisiya qoyuluşlarının vergi stimullaşdırılması məqsədilə Vergi Məcəlləsində edilmiş dəyişikliklərlə sənaye və texnologiyalar parklarında sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin gəlirlərinin 7 il müddətinə gəlir vergisindən, parkların idarəedici təşkilatının və operatorunun mənfəətinin parkın infrastrukturunun tikintisinə və saxlanılmasına yönəldilmiş hissəsi müddət qoyulmadan mənfəət vergisindən, sənaye və texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlirləri 7 il müddətinə mənfəət vergisindən, sənaye və texnologiyalar parklarının infrastrukturunu, istehsal sahələrinin yaradılması və tikintisi məqsədilə idarəedici təşkilat və operator tərəfindən idxal edilən texnikaları, texnoloji avadanlıqların və qurğuların idxalının müddət qoyulmadan ƏDV-dən, parkların rezidenti olan şəxslər tərəfindən qeyd olunan məqsədlər üçün gətirilən texnika, texnoloji avadanlıq və qurğuların idxalı 7 il müddətinə ƏDV-dən azad edilib. Eyni zamanda, Vergi Məcəlləsində parkların idarəedici təşkilatı və operatoru, parkların rezidenti olan hüquqi və fiziki şəxslər üçün əmlak və torpaq vergiləri üzrə də azadolmalar müəyyənləşdirilib.

Kənd təsərrüfatı 2001-ci il 1 yanvar tarixindən torpaq vergisi istisna olmaqla bütün vergilərdən azad edilib və bu güzəştin müddəti məcəllədə olan son dəyişikliklərə əsasən 2019-cu ilə qədər uzadılıb. Bank depozitlərindən əldə olunan gəlirlər uzun müddət vergidən tam azad idi və 2015-ci il 1 yanvar tarixindən həmin gəlirlərin 500 manatadək olan hissəsi yenə vergidən azad olundu. Məktəbəqədər təhsil-tərbiyə müəssisələri, ödənişli təhsil isə ƏDV-dən azad olunub.

Dünyanın ƏDV tətbiq edən bütün qabaqcıl ölkələrində olduğu kimi, Azərbaycanın da vergi sisteminin əsas inkişaf istiqamətlərindən biri olan ƏDV inzibatçılığının təkmilləşdirilməsi daim diqqət mərkəzində saxlanılır.

Beynəlxalq qurumların tövsiyələri və ƏDV-nin tətbiqi sahəsində əldə olunmuş təcrübə nəzərə alınmaqla ƏDV məqsədləri üçün vergi ödəyicilərinin qeydiyyatı, ƏDV-nin hesablanması və əvəzləşdirilməsi mexanizmi təkmilləşdirilib. Vergi Məcəlləsində dəyişikliklər edilməklə ƏDV məqsədləri üçün qeydiyyata alınmalı olan vergi ödəyicilərinin müəyyən edilməsində hüquqi və fiziki şəxslər arasında mövcud olan fərqli yanaşmanın aradan qaldırılmasına, ƏDV-nin hesablanması və əvəzləşdirilməsinin vahid prinsip əsasında həyata keçirilməsinə, qeydiyyatla bağlı meydana çıxan mübahisəli məsələlərin həllinə və ƏDV inzibatçılığının sadələşdirilməsinə nail olunub.

Azərbaycan Respublikası qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması istiqamətində həyata keçirilən son tədbirlərdən biri kimi yerli istehsalda tütün məmulatlarına tətbiq edilən aksizin advalor qaydada hesablanmasından spesifik qaydaya keçildiyini (malların dəyərinə tətbiq olunan aksiz dərəcəsindən onların həcminin kəmiyyət ölçüsünə tətbiq olunan aksiz dərəcəsinə keçilməsi), Azərbaycan Respublikasının ərazisində istehsal olunan içməli spirtə, pivə və spirtli içkilərin bütün növlərinə, tütün məmulatlarına tətbiq olunan aksiz dərəcələri ilə bağlı dəyişiklikləri göstərmək olar.

Ötən dövr ərzində Vergi Məcəlləsində edilmiş dəyişikliklər, əsasən, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi güzəştlərinin verilməsində ünvanlılığın təmin edilməsi, vergidən yayınma hallarına qarşı səmərəli vergi nəzarətinin təşkili, innovasiyalar üçün əlverişli investisiya mühitinin yaradılması, vergi ödəyiciləri ilə partnyorluq əlaqələrinin genişləndirilməsi ilə bağlı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasına uyğun olaraq, Vergilər Nazirliyi tərəfindən təsdiq olunmuş «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»da ölkə qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması, passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçid, vergilər üzrə güzəşt və azadolmaların səmərəliliyinin qiymətləndirilməsi, vergi bəyannamələrinin əvvəlcədən doldurulma sisteminə mərhələlərlə keçidin təmin olunması, ümumi bəyannamə sisteminə keçidlə bağlı hazırlığın görülməsi kimi tədbirlər müəyyən edilib.

Qeyd etmək lazımdır ki, vergi sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən bütün tədbirlərdə dövlət, biznes və istehlakçılar arasında qarşılıqlı etibar və korporativ sosial maraqların təmin edilməsi vergi siyasətinin əsas vəzifələrindən biri olub. Bu vəzifənin yerinə yetirilməsi üçün ölkəmizin iqtisadi sisteminin xüsusiyyətləri və əhalinin mentaliteti, psixologiyası və sosial-iqtisadi-demoqrafik imkanları əsas faktorlar kimi həmişə diqqət mərkəzində saxlanılır. Səmərəli maarifləndirmə və məlumatlandırma sisteminin yaradılması məqsədilə vergi ödəyicilərinin sosial-demoqrafik göstəricilərinə əsasən vergidən yayınmanın motivlərinin aşkar olunması, vergidən yayınma riskinə meyilli və risklərə neytral olan vergi ödəyicilərinin ayrılması və vergi ödəməkdən yayınmanın institusional xüsusiyyətlərinin müəyyənləşdirilməsinə imkan verən metodologiya hazırlanıb.

Artıq ölkədə büdcə planlaşması və vergi siyasətinin həyata keçirilməsinin kifayət qədər təkmil metodları formalaşıb. Belə ki, hər maliyyə ilinin sonunda büdcə planlaşdırılması sahəsində mövcud məsələlərin həlli ilə yanaşı, dövlətin vergi siyasəti institutları tərəfindən Azərbaycan Respublikasının növbəti və yaxın üç il üçün vergi siyasətinin əsas istiqamətləri işlənib hazırlanır. Vergi siyasətinin əsas istiqamətləri normativ sənəd statusuna malik olmasa da, bu istiqamətlər ölkə iqtisadiyyatının struktur komponentinin xüsusi çəkisinin artırılması, dünyada baş verən siyasi və iqtisadi konyukturdan asılı komponentin təsirinin neytrallaşdırılması, iqtisadi agentlərdə öz gələcək biznes-planlarının tərtibi zamanı biznes mühitinin sabitliyi və müəyyənliyi ilə bağlı əlavə imkanlar yaradır.

Vergi siyasəti sahəsində yuxarıda qeyd olunan prioritetlər və müəyyənlik orta və uzunmüddətli dövrdə vergi sisteminin səmərəliliyinin artırılması ilə yanaşı, bir tərəfdən, büdcənin dayanıqlığının təmin edilməsini nəzərdə tutan büdcə gəlirlərinin əldə olunmasına, digər tərəfdən isə ölkənin xarici iqtisadi inteqrasiyada vergi rəqabətliliyini təmin edən sahibkarlıq və investisiya aktivliyinə xidmət edir.

# Elektron viza Azərbaycanda turizmin inkişafına təkan verəcək

Son illərdə Bakıda, Gəncədə, Naxçıvanda və ölkənin digər şəhərlərində xarici qonaqları qəbul edə bilən xeyli sayda müasir mehmanxana və hotellər fəaliyyət göstərməyə başlayıb. Respublikamızın bütün regionlarını əhatə edən 100-dən artıq turizm firması xarici turistlərin qəbulu və yerli əhaliyə turist xidməti ilə məşğul olur. Ölkədə 149 mehmanxana rəsmi qeydiyyatdan keçmişdir və onlarda yerlərin ümumi sayı 5000-dən artıqdır. Turizm üçün əlverişli regionlarda müasir səviyyəli özəl müalicə və istirahət mərkəzləri istifadəyə verilib. Respublikamıza gələn xarici qonaqların sayı 1 milyon nəfəri ötüb keçib.

2003-cü ildə «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında», 2004-cü ildə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı» haqqında prezident fərmanları ölkə iqtisadiyyatının, o cümlədən turizm sektorunun inkişafı yolunda mühüm addımlardandır. Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir.

«2009-2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı» ölkəmizdə yaxın gələcəkdə turizm-kurort sahələrinin planlı surətdə inkişaf etdirilməsinə və səmərəli istifadəsinə zəmin yaradır.

Mədəniyyət və Turizm Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Vüqar Şıxəmmədovun dediklərinə görə, ölkəmizə gələn xarici turistlərin sayının artırılması və bu sahədə mövcud problemlərin həll olunması istiqamətində nazirlik tərəfindən ardıcıl tədbirlər görülür: «Azərbaycan Respublikasına viza tələb olunan ölkələrdən turizm məqsədilə gələn xarici turistlərə, bu istiqamətdə nazirliyin gördüyü işlərin nəticəsi olaraq, 2013-cü ilin mart ayından elektron turist vizalarının verilməsi tətbiq olunur.

Bu sistemin Azərbaycanda tətbiqi Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatı (BMÜTT) tərəfindən də yüksək qiymətləndirilmiş və təşkilatın baş katibi Taleb Rifai bildirmişdir ki, bu qərar ölkədə turizmin inkişafına təkan verəcək və bütövlükdə ölkənin turizm sektorunun daha da inkişafına gətirib çıxaracaqdır.




Elektron turist vizasının tətbiqi Mədəniyyət və Turizm Nazirliyi tərəfindən turizm fəaliyyətinə lisenziya almış turizm şirkətlərinin gəlmə turizm növünə marağının artırmışdır. Hazırda elektron turist vizasının verilməsi ilə bağlı nazirlik tərəfindən 55 turizm şirkəti akkreditasiyadan keçmişdir. 2013-cü il ərzində turizm şirkətləri tərəfindən elektron turist vizası vasitəsilə ölkəmizə gələn xarici turistlərin sayı 6147 nəfər təşkil etmişdir. 2014-cü ilin məlumatlarına əsasən, bu rəqəm 17 manat nəfərə yaxın olmuşdur» .

Yeni olduğu nəzərə alınaraq, bu sistem vasitəsilə ildən-ilə elektron turist vizası alan əcnəbi turistlərin sayının artacağı və gəlmə turizminin inkişaf edəcəyi gözlənilir.

**F.İKRAMQIZI**

# İtaliya qəzeti Azərbaycanın neft sənayesindən bəhs edib

*İtaliyanın «Corriere della sera» qəzetində Azərbaycanda neft sənayesinin inkişaf tarixindən bəhs edən məqalə yerləşdirilib.*

Yazıda bildirilir ki, italiyalılar Xəzər nefti ilə bağlı ilk məlumatları tanınmış italyan səyyahı Marko Polonun qeydlərindən əldə ediblər. Məşhur səyyah Bakını «su əvəzinə neft axan bir məkana» bənzədib və bu şəhərdə gördüyü neft qaynaqlarından heyrətləndiyini dilə gətirib. Vurğulayıb ki, Azərbaycanda neftlə müalicə də ənənə halını alıb. Neftdən hazırlanan məlhəmlər müxtəlif dəri xəstəliklərinin müalicəsi üçün istifadə olunur.

Oxucuların diqqətinə çatdırılır ki, Azərbaycanın «Odlar Yurdu» adlandırılması heç də təsadüfi deyil. Atəşgah məbədində yerin təkindən çıxan alov hamını heyrətə gətirir. Azərbaycanın paytaxtı Bakı Böyük İpək Yolunun üzərində yerləşməsi baxımından da hələ qədim dövrlərdən önəmli bir şəhər olub. Bakının Dubaya bənzədiyini bildirən müəllif Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərindən və bu layihənin Azərbaycanın inkişafına töhfə verməsindən də bəhs edib.

Bibiheybət məscid-ziyarətgah kompleksi ilə bağlı məlumat verən müəllif bu dini ocağın 1934-cü ildə sovet hakimiyyəti tərəfindən dağıdıldığını, yalnız ulu öndər Heydər Əliyevin prinsipial mövqeyi nəticəsində bərpa edildiyini bildirir. Diqqətə çatdırır ki, Bibiheybət ərazisi neftin kütləvi çıxarıldığı ilk yerlərdən biri olub. Azərbaycanın neft sənayesinin inkişafından söz açan müəllif Nobel qardaşlarının, Rotşildin ölkəmizdə bu istiqamətdəki fəaliyyətlərinə də toxunur. Qeyd edir ki, neftin tankerlə daşınmasının reallaşması da məhz bu dövrə təsadüf edir: «Həmin dövrdə Bakı dünyanın neft tələbatının təxminən yarısını təmin edirdi. Hətta bu şəhərdə neft axtarmağa ehtiyac da yox idi, çünki neft fontanlarına hər yerdə rast gəlmək olardı. Bütün bu zənginlik Bakını qədimliklə müasirliyin, Şərq və Qərb ənənələrinin qovuşduğu möhtəşəm bir şəhərə çevirdi».

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Bank faizlərindən vergi

***Fiziki şəxslərin əmanətləri üzrə bank tərəfindən ödənilən faizlərdən vergi tutulurmu? Əgər tutulursa, bunu kim etməlidir?***

Yerli bankın, eləcə də xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin əmanətləri üzrə hesablanmış faizlərin illik məbləğinə 500 manat güzəşt tətbiq edilməklə ödəmə mənbəyində vergiyə cəlb olunur. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Məcəllə) 102.1.22-ci maddəsinə əsasən, yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən illik faiz gəlirlərinin 500 manatadək olan hissəsi gəlir vergisindən azaddır.

Məcəllənin 123.1-ci maddəsində qeyd olunur ki, rezident kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə, maliyyə lizinqini həyata keçirən rezident şəxslərə və ya qeyri-rezident bankların, maliyyə lizinqini həyata keçirən qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə kreditlər (ssudalar), depozitlər (hesablar) üzrə ödənilən faizlər istisna olmaqla, rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən gəlir Məcəllənin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, 102.1.22-ci maddədə nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

Məcəllənin 150.1.5-ci maddəsinə əsasən, hüquqi və fiziki şəxslərə faizlər ödəyən hüquqi şəxslər və ya sahibkarlar ödəmə mənbəyində vergini tutmağa borcludurlar. Məcəllənin 150.3.2-ci maddəsinə görə, ödəmə mənbəyində vergi tutan hüquqi şəxslər, fərdi sahibkarlar və xüsusi notariuslar 150.1.3-150.1.7-ci maddələrə uyğun olaraq, gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergini büdcəyə köçürməyə və həmin müddətdə vergi orqanına ödəmə mənbəyində tutulan vergilər barədə bəyannamə verməyə borcludurlar.

O da qeyd olunmalıdır ki, Məllənin 92-ci maddəsinə əsasən, qanunda nəzərdə tutulan hallarda ödəmə mənbəyində gəlirdən (mənfəətdən) vergi tutmadan həmin məbləği ödəyən hüquqi şəxslər və onların müvafiq işçiləri və ya fiziki şəxslər verginin tutulmamasına və büdcəyə köçürülməməsinə görə bu Məcəllənin tələblərinə uyğun məsuliyyət daşıyırlar.

Sonda onu da bildiririk ki, həm yerli bankın, həm də xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin əmanətləri üzrə 2014-cü il dekabrın 31-dək hesablanmış faizlərdən ödəmə mənbəyində vergi tutulmur.

# Azərbaycanın beynəlxalq investisiya reytinqi sabitdir

Dünyanın aparıcı reytinq agentliyi olan «Standard & Poor`s» Azərbaycanın beynəlxalq kredit reytinqini «BBB-» saxladığını təsdiq edib. Qurumun açıqladığı hesabatda qeyd olunur ki, reytinqin müəyyənləşməsində ölkənin iqtisadi inkişafı, investisiya mühiti, maliyyə sabitliyi, iqtisadiyyatın maliyyə sektorunda dayanıqlıq, sabit artım templəri və digər elementlər başlıca faktorlar kimi götürülüb.

İqtisadçı Aydın Hüseynovun fikrincə, «Standard & Poor`s» reytinqi təyin edərkən, təbii ki, ölkəmizdəki investisiya mühiti ciddi şəkildə təhlil olunub. Respublikamızda mövcud biznes mühiti və xarici sərmayədarların fəaliyyəti üçün təmin edilmiş cəlbedici sərmayə atmosferi qurumun əsas araşdırma sahələrindən olub: «Hazırda bir çox maliyyə institutları və sərmayəçi ölkələr Azərbaycanın investisiya imkanlarının cəlbedici olması barədə rəylərlə çıxış edirlər. Bu isə xarici sərmayə qoyuluşlarının artım dinamikası üçün əlverişli imkanlar yaradır. 2014-cü ildə ölkə iqtisadiyyatına 10 milyard dollara yaxın xarici investisiya yönəldilib. İnvestisiya sahəsində həyata keçirilən tədbirlər və sərmayə cəlbediciliyinin yüksəldilməsi Azərbaycanın maliyyə sabitliyinin möhkəmlənməsinə səbəb olur. Maliyyə sabitliyi faktoru xarici investorların ölkəyə marağının artmasında mühüm rol oynayır. Mövcud kredit reytinqi yaxın illərdə ölkə iqtisadiyyatına sərmayələrin axınına geniş imlanlar yaradacağını deməyə əsas verir. Son illər həyata keçirilən investisiya siyasəti sayəsində Azərbaycan həm daxili, həm də xarici investisiya proqramlarını maliyyələşdirmək gücündədir. Hazırda yeni Dövlət İnvestisiya Proqramı hazırlanır və bu konsepsiyanın başlıca hədəfləri dövlət tərəfindən maliyyələşdirilən investisiyaların həcminin 2015-ci ildə azaldılması və əsas gücün özəl sektorun üzərinə düşməsinin təmin olunmasıdır. Bu gün ölkəmizdə böyük maliyyə imkanlarına malik iri şirkətlərin sayı artır, sərmayə qoyuluşları güclənir. Öz mənbələri hesabına ölkə iqtisadiyyatına 2-3 milyard dollar həcmində investisiya qoyan şirkətlər mövcuddur. Təsadüfi deyil ki, Azərbaycan MDB ölkələri sırasında investisiyaların ən yüksək artım tempi müşahidə olunan ölkə sayılır. Respublikamızın iri şirkətləri tərəfindən xarici ölkələrin iqtisadiyyatına qoyulmuş sərmayələrin həcmi 6 milyard dolları ötüb və bütün bunlar Azərbaycanın investisiya reytinqinin sabit qalmasında başlıca rol oynayır».




İqtisadçı hesab edir ki, «BBB-» investisiya reytinqi məqbul göstəricidir və Azərbaycan üçün beynəlxalq səviyyəli investisiya reytinqi sayıla bilər. Bu, respublikamızın beynəlxalq statusa malik potensial sərmayəçi imicinin möhkəmlənməsinə güclü əsaslar, eləcə də ölkəmiz üçün qlobal investisiya sektorunda aktiv iştiraka zəmin yaradır: «Xüsusilə də bu, Azərbaycanın beynəlxalq maliyyə bazarlarında istiqraz və qiymətli kağızlarını yerləşdirməsi üçün yaxşı fürsət deməkdir. Respublikamız Avropanın maliyyə, bank, sığorta, qiymətli kağızlar bazarında ötən il ilk istiqrazlarını yerləşdirib və nəticə uğurlu olub. Bu istiqamətdə emissiyanı davam etdirməyi planlaşdıran hökumət mövcud investisiya reytinqinə əsaslanaraq dövlət istiqrazlarının beynəlxalq bazarlarda yerləşdirilməsinin növbəti mərhələsinə start vermək niyyətindədir».

**Elbrus CƏFƏRLİ**

# Dövlət nəzarəti gücləndirilir



*Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti Azərbaycan Prezidentinin "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli fərmanı ilə Maliyyə Nazirliyi yanında Dövlət Əyar Palatasının bazasında yaradılıb. Bu təşkilat ölkə ərazisində dövlət əyar nəzarətini, qiymətli metalların və daşların istehsalı, emalı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması sahəsində dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. Sözügedən qurumun məqsədi, fəaliyyəti ilə bağlı xidmətin rəisi, dövlət qulluğunun baş müşaviri Adil Əhmədova müraciət etdik.*

***- Adil müəllim, Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidmətinin Azərbaycan Respublikasında dövlət büdcəsi vəsaitinin və dövlət borcunun idarə edilməsində rolu nədən ibarətdir?***

- Xidmətin əsas məqsədi istehlakçıların hüquqlarının qorunması və dövlət standartlarına uyğun olmayan zərgərlik məmulatlarının satışının qarşısının alınması məqsədilə Azərbaycan ərazisində yalnız dövlət əyar damğası ilə damğalanmış zərgərlik məmulatlarının satışına nail olmaq, qiymətli metalların və daşların, habelə onlardan hazırlanmış zərgərlik və ya digər məişət məmulatlarının ekspertiza, analiz, əyarlanma və damğalanma prosedurlarının keçirilməsində daha müasir tələblərə cavab verən avadanlıq və cihazlardan istifadə etməklə əhaliyə və sahibkarlara yüksək keyfiyyətli xidmət göstərməkdir. Dövlət nəzarətini həyata keçirməsi üçün qurumun mükəmməl normativ-hüquqi və maddi-texniki bazası mövcuddur. «Qiymətli metallar və qiymətli daşlar haqqında» Azərbaycan Respublikasının Qanunu və çoxsaylı normativ-hüquqi aktlar bu sahədə münasibətlərin tənzimlənməsi üçün zəruri hüquqi baza olmaqla, həyata keçirilən nəzarət tədbirlərinin daha səmərəli yerinə yetirilməsinə zəmin yaradır.

Dövlət əyar nəzarətinin həyata keçirilməsi zamanı bir çox hallarda Azərbaycanda və xaricdə qiymətli metallardan və daşlardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının üzərindəki əyar göstəricilərinin reallığı əks etdirməməsi, əyar damğalarının keyfiyyətinin müvafiq tələblərə və isteklakçıların mənafeyinə uyğun gəlməməsi, respublikamızda qəbul edilmiş əyarlardan aşağı olması faktları aşkar edilir. Bununla əlaqədar sahibkarlıq subyektlərində aparılan yoxlamalar nəticəsində üzərində mənşəyi məlum olmayan ad və əyar damğa izləri aşkar edilmiş qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarından bu izlər təmizlənir və müvafiq əyarlara uyğun dövlət əyar damğası ilə damğalanır. Yol verilmiş nöqsanlarla əlaqədar qanun pozuntusu aşkar edilmiş sahibkarlar barədə isə İnzibati Xətalar Məcəlləsinə uyğun qaydada inzibati tənbeh tədbiri tətbiq olunaraq, müvafiq məbləğdə cərimənin ödənilməsi təmin edilir.

***- Hasil və emal olunmuş qiymətli metalların və qiymətli daşların satışı sahəsində münasibətlərin dövlət tənzimlənməsinə necə nəzarət olunur?***

- Xidmətin stasionar və səyyar laboratoriyalarında xarici ölkələrin istehsalı olan ən müasir avadanlıqlar quraşdırılıb. 2009-cu ildə yaradılmış hemmoloji laboratoriyada qiymətli daşların ekspertizasını və diaqnostikasını aparmaq, həmçinin kəmiyyət və keyfiyyət göstəricilərini müəyyən etmək üçün quraşdırılmış bütün avadanlıqlar Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində yoxladan keçirilib və ISO/IEC 17-025 beynəlxalq standartına uyğun olaraq, akkreditasiya olunub. Xidmətin sifarişi ilə 2009-cu ildə Almaniyada müasir cihaz və avadanlıqlarla təchiz edilmiş, Avropa və MDB ölkələrində yeganə olan səyyar laboratoriya quraşdırılaraq respublikamıza gətirilib. Bu laboratoriya respublikanın regionlarında sahibkarlar tərəfindən satışa çıxarılan qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının ekspertizası, analizi, əyarlanması və damğalanması əməliyyatlarının operativ həyata keçirilməsini təmin etmək, həmçinin istehlakçıların təhlükəsizliyini qorumaq məqsədilə fəaliyyət göstərir.

***- Xidmət tərəfindən Azərbaycan Respublikasının «Qiymətli metallar və qiymətli daşlar haqqında» Qanununun tələblərinə əməl edilməsinə nəzarət məqsədi ilə hansı tədbirlər görülür?***

- Həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədilə qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi sahələrində fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi ilə əlaqədar dövlət başçısı «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli 510 nömrəli fərmanına əlavə edilməsi barədə» 2007-ci il 29 iyun tarixli 605 nömrəli fərman imzalayıb. Fərmanın icrası ilə bağlı sahibkarlar tərəfindən edilən müraciətlərə əsasən, onlara müvafiq fəaliyyət növü ilə məşğul olmaları üçün xüsusi razılıq (lisenziya) verilir.

Xidmət tərəfindən «Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı və istifadəsi, dövriyyəsi fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün müraciətin və sənədlərin qəbulu», həmçinin «Qiymətli metalların və qiymətli daşların qalığı barədə statistik məlumatların qəbulu» elektron variantda təşkil edilmişdir.

Xidmət tərəfindən təsdiq edilmiş iş planına əsasən, «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Qanuna uyğun olaraq, 2014-cü ildə aparılan yoxlamalar nəticəsində sahibkarlıq fəaliyyəti subyektlərindən ekspertiza, analiz, əyarlanma və damğalanma məqsədilə üzərində dövlət əyar damğası olmayan qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış 5816 ədəd zərgərlik məmulatının xidmətə məcburi gətirilməsi və onların üzərinə müvafiq əyarlara uyğun dövlət əyar damğasının vurulması təmin edilmişdir. Ötən il sahibkarlıq fəaliyyəti subyektlərində aparılmış yoxlama nəticəsində qanun pozuntusu aşkar edilmiş 15 sahibkar inzibati məsuliyyətə cəlb olunmuş və 18 min manat məbləğində inzibati cərimənin ödənilməsi təmin edilmişdir. Ümumilikdə 2014-cü ildə ekspertiza, analiz, əyarlanma və damğalanmaq üçün daxil olmuş qiymətli metallardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarına görə və xüsusi razılıq (lisenziya) üçün 1 milyon 313 min 256 manat dövlət rüsumunun ödənilməsi təmin edilmişdir.

***- Vergi Məcəlləsində dəyişikliklərə əsasən, bu ildən Azərbaycanda idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza da aksiz vergisi tətbiq ediləcək...***

- «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 30 dekabr 2014-cü il tarixli, 1167-IVQD nömrəli Qanunu ilə idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza aksiz dərəcələri tətbiq edilmişdir. Aksiz dərəcələri qiymətli metallar üçün müəyyən olunmuş əyarlar üzrə hər qramına görə, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın isə hər karatına görə tətbiq edilmişdir. İdxal olunan platinin hər qramına görə 2 manat aksiz vergisinin tətbiqi nəzərdə tutulur. Misal üçün: platinin çəkisi 5 qram olduqda, aksizin məbləği 10 manat təşkil edir. Qızılın və ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının min çəki vahidindəki miqdarı 375 olduqda hər qramına görə - 0,8 manat, 500 olduqda - 1 manat, 585 olduqda - 1,2 manat, 750 olduqda - 1,5 manat, 958 olduqda - 1,8 manat və 999 olduqda - 2 manat aksiz vergisinin tətbiqi nəzərdə tutulur. İdxal edilən emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın 1 karatına görə 200 manat aksiz vergisinin tətbiqi nəzərdə tutlur. Almazın miqdarı 1 karatdan aşağı olduqda, 1 karat üçün müəyyənləşdirilmiş 200 manat almazın karatının miqdarına mütənasib olaraq, azaldılır. Misal üçün: 0,4 karat olduqda aksizin məbləği 80 manat, 1 karatdan yuxarı olduqda, hər karat üçün müəyyənləşdirilmiş 200 manata 1-dən 2-dək -2,0; 2-dən 3-dək - 3,0; 3-dən 4-dək - 4,0; 4-dən 5-dək - 5,0; 5-dən yuxarı olduqda - 10,0 əmsalları tətbiq edilir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 188.1.1-ci bəndinə edilmiş dəyişikliyə əsasən, fiziki şəxsin fərdi istehlakı üçün 20 qram qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş 0,5 karat almazın idxalı, gömrük rüsumlarından azadolmaların şərtlərinə əməl olunduqda, aksizdən azad edilmişdir.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# «Pensiya əmanəti»nə maraq artır

«Pensiya əmanəti» Azərbaycan Beynəlxalq Bankının əmanətçiyə təklif etdiyi məhsuldur. ABB-nin mətbuat xidmətinin rəhbəri Rauf Ağayevin sözlərinə görə, «Pensiya əmanəti» - əmanətçinin xeyrinə maksimum çevik şərtlər təklif edən və ən azı 15 il müddətinə yığım xarakterli əmanətdir. Müqavilə şərtlərinə görə, əmanətçi artıq 50 yaşında öz əmanətini ala bilər və bu vaxta qədər onun 15 il ərzində topladığı məbləğ ikiqat artmış olur: «Məsələn, aylıq 100 manat məbləğində vəsait köçürüldükdə 15 ilin yekunlarına əsasən yığımlar 18 min manata çatır. Bu məbləğə bank tərəfindən 18.107 manat əlavə edilir. Nəticədə, əmanətin müddəti bitdikdə müştəri 36.107 manat əldə edir. Əgər əmanət 32 illik (18 yaşından 50 yaşadək) müddətinə yerləşdirilirsə, müddət bitdiyi anda onun məbləği 5 dəfə artacaqdır. Əmanətçinin 32 il ərzində topladığı məbləğ 38.400 manata, bankın əmanətə əlavə etdiyi məbləğ isə (qoyulan aylıq 100 manat üzərinə bank 408,2 manat əlavə edir) 156.745 manata çatır, yekunda isə 195.145 manat alınır. Daha bir missal: Vəsaitlər 45 il ərzində, yəni şəxsin tam işləmək qabiliyyətində olduğu dövründə (18 yaş - 63 yaş) toplandıqda, məbləğ 11 dəfə artır: toplanmış 54 min manatın üzərinə 553 min 693 manat

*Bu il yanvarın 1-nə olan məlumata əsasən, əmanətin bu növünə vəsait qoyan müştərilərin sayı 6300 nəfəri keçib*

əlavə edilir (cəmi 607693) və ya bank aylıq 100 manat ödəniş üzərinə 1025,4 manat əlavə edir».

«Pensiya əmanəti»nin sahibinə yığım plastik kartı təklif olunur ki, onun vasitəsilə ABB-nin bankomatlarında köçürülən məbləği və faizləri müntəzəm olaraq izləmək mümkün olacaqdır. Bundan əlavə, bu informasiyanı internet-bankinq, mobil-bankinq, habelə ABB-nin informasiya mərkəzi vasitəsilə əldə etmək olar.

Yığılma müddəti başa çatdıqda pensiya əmanətinin sahibi ona üç üsul ilə sərəncam verə bilər: əmanətin bütün məbləğini dərhal götürmək və ya ömrü boyu pensiya almaq qərarına gəlmək - bu zaman əmanətçi əmanətdən dividendlər alacaq, əmanət isə varislərə keçəcəkdir; və ya müəyyən müddət ərzində onu aybaay almaq - bu zaman hesabda qalan məbləğ üzərinə faiz hesablanacaqdır.

Sözsüz ki, «pensiya əmanəti» üzrə müddətlər haqqında razılaşma pozulduğu halda, əmanətçi topladığı əmanəti tam həcmdə alır, əlavə olaraq faiz hesablamalarının məbləği ümumi həcmin 75%-dək çata bilir. Hazırda Azərbaycanın yığım əmanətləri bazarında belə çevik məhsul yoxdur. «Pensiya əmanəti», həmçinin, ən əlverişli əmanət hesab edilə bilər, çünki müqavilənin müddəti bitdikdən sonra, aylıq artırılmalar şərti ilə, ən azı 200% yığım əldə etməyə imkan verir.

Azərbaycan Beynəlxalq Bankının fərdi pensiya yığımları məhsulu - «Pensiya əmanəti»nə əhali tərəfindən maraq artmaqdadır. Bu il yanvarın 1-nə olan məlumata əsasən, əmanətin bu növünə vəsait qoyan müştərilərin sayı 6300 nəfəri keçib. «Pensiya əmanəti» üzrə vəsaitlərin həcmi 230,6 min manat səviyyəsindədir və artmaqda davam edir. Xatırladaq ki, ABB bu məhsulu bazara 2013-cü ilin noyabrında çıxarıb.

**FƏXRİYYƏ**

# Elektron ticarətdə ödəniş sistemləri

Dünyanın aparıcı konsaltinq şirkətləri tərəfindən hazırlanan hesabatlar elektron ticarət bazarının həcminin günbəgün inkişaf etdiyini və müxtəlif ödəniş vasitələrinin tətbiq olunduğunu göstərir. Hazırda internet istifadəçilərinin 40%-i kompüter, planşet, mobil telefon və digər elektron vasitələrdən istifadə edərək mal alır. Bu, təqribən 1 milyard onlayn alıcı deməkdir. Elektron ticarətin inkişafı ilə bərabər, alternativ ödəniş vasitələrindən də istifadə genişlənməkdədir. Bunun əsas səbəbi alternativ ödəniş sistemlərinin istehlakçının maraqlarına xidmət etməsi ilə yanaşı, alqı-satqı prosesinin daha asan və təhlükəsiz yerinə yetirməsinə imkan yaratmasıdır. «World pay» tərəfindən hazırlanan «Alternativ ödənişlərə baxış» hesabatına əsasən, 2017-ci ildə alternativ ödənişlər onlayn əməliyyatların 59%-ni təşkil edəcək.

Bu məqalədə Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsi tərəfindən «Elektron ticarətdə ödəniş sistemləri» mövzusunda hazırlanmış icmalda müxtəlif ödəniş sistemlərindən söz açılır.

### Elektron pul (E-cash)

Elektron pul (E-cash) rəqəmsal pul məhsullarıdır. Müxtəlif şirkətlər tərəfindən təklif edilən rəqəmsal pul məhsulları, əsasən, iki modeldə mövcuddur. Onlayn rejimdə olan «elektron pul» (e-cash) «DigiCash» şirkəti tərəfindən təklif edilir və internet əməliyyatlarını aparmağa imkan verir. Elektron pulu bank hesabından xüsusi proqram vasitəsi ilə öz elektron pul kisəsinə yükləyən istifadəçi onlayn qaydada internet mağazasından alış-veriş edə bilər. «Elektron pul» sxemi ilə məşğul olan şirkət çox cüzi miqdarda internet mağazasından xidmət haqqı tutur, eyni zamanda, bankdan onun müştərisinin elektron pulları yükləməyə icazə verən xüsusi proqramlarına görə aylıq ödənişlər şəklində royaltilər əldə edir.

Oflayn rejimi isə rəqəmsal kodlaşdırılmış kartlardır (smart kartlar) və bu versiya «Mondex» şirkəti tərəfindən müxtəlif banklarla əməkdaşlığın nəticəsi olaraq tətbiq edilməkdədir. Elektron pullar bu kartlara yüklənir və onlarla müxtəlif əməliyyatlar həyata keçirmək mümkündür. Adı çəkilən ödəniş sistemləri dünyanın inkişaf etmiş regionlarında tətbiq olunur. Honk-Konqda «Octopus card system» elektron pul sisteminin sahəsində yüksək inkişafa nail olunmuşdur. Londonda «Transport Oyster card» sistemi nəqliyyatda istifadə edilir. Sinqapur hökuməti tərəfindən «Sony» şirkətinin hazırladığı «FeliCa» sisteminə əsaslanan ictimai nəqliyyatlar üçün xüsusi elektron pul proqramı irəli sürülüb. Bu sistem Tokioda da tətbiq edilir. Niderlandda ən geniş yayılmış elektron pul sistemi şəbəkəsi «Chipknip» adlanır və bu sistem çoxçeşidli məqsədlər üçün istifadə edilir. Ölkəmizdə smart kartlara elektron pullar köçürülərək müxtəlif əməliyyatlar aparmağa imkan var. Sərnişindaşıma sahəsində, xüsusilə avtobus və metroda elektron pul sisteminə əsaslanan smart kartlardan istifadə olunur.

### Elektron pul kisəsi (E-wallet)

«Elektron pul kisəsi (E-wallet)» ödəniş əməliyyatlarını həyata keçirmək üçün istifadə edilən internet əsaslı proqramdır. Bu sahədə ən böyük internet nəhəngləri «PayPal», «Google Wallet», «Checkout By Amazon» «Moneybooks» və digərləri hesab edilir. Elektron pul kisəsini əldə etmək üçün müştəri bu sahədə fəaliyyət göstərən şirkətlərin birinin səhifəsindən qeydiyyatdan keçə bilər. Proqramı əldə edən müştəri adi ödəniş kartları və bank hesablarından pul kisəsinə istədiyi qədər məbləği transfer edə bilir. Bundan sonra, sadəcə, öz şifrə və parolu və ya elektron poçt ünvanını yazmaqla elektron pul kisəsinə daxil olaraq onlayn alış-veriş edir.

### Mobil pul kisəsi

Son dövrlərdə bu proqramın yeni versiyası smartfonlara da tətbiq edilməkdədir. «Elektron pul kisəsi»nin geniş tətbiq edilən növlərindən biri də «PayPal» və «Google Wallet» şirkətləri tərəfindən təqdim olunan «Mobil pul kisələri»dir. Bu proqram mobil telefonlar vasitəsi ilə onlayn və ənənəvi formada alış-veriş etmək məqsədi ilə tərtib olunmuşdur.




Smartfonlara quraşdırılmış «Near Field Communication (NFC)» sistemi POS-terminallarla ödəniş etməyə imkan yaradır. Bu sistem vasitəsi ilə parkomatlarda, metroda, alış-verişdə, kinoda, avtobuslarda və digər ictimai-iaşə obyektlərində ödəniş etmək mümkündür.

Bundan başqa, bu sahədə fəaliyyət göstərən iri şirkətlər istifadəçilərə «mobil pul kisələri» vasitəsi ilə iki telefon arasında pul transferini həyata keçirmək imkanı yaratmışlar. İstifadəçilər «Near Field Communication (NFC)» sistemi quraşdırılmış telefonları bir-birlərinə yaxınlaşdıraraq istənilən məbləği transfer edə bilirlər.

2013-cü ilin məlumatına əsasən, «PayPal» 137 milyon hesabla 203 ölkəni, «Checkout By Amazon» 100 milyon hesabla 27 ölkəni və «Google Wallet» 161 ölkəni əhatə etmişdir. «Moneybooks» şirkəti də dünyanın ən böyük onlayn ödəniş provayderlərindən biri kimi 800 minə qədər internet mağazasına xidmət göstərir. 41-ə yaxın pul vahidi ilə əməliyyat aparmağa imkan verən bu provayder 200-dən çox ölkəni əhatə edir.

Dünya praktikasında «elektron pul kisələri» vasitəsilə aparılan əməliyyatların həcmi ümumi onlayn ödənişlər sistemində artmaqdadır. ABŞ, Kanada, Çin, Yaponiya və Avropa ölkələrinin əksəriyyətində «elektron pul kisələri» sistemindən geniş istifadə edirlər. «Alternativ ödənişlərə baxış» hesabatına əsasən, ABŞ və Kanadada «elektron pul kisələri» ilə aparılan əməliyyatların həcmi alternativ ödənişlər bazarında 18%, Avropada 13%, Latın Amerikasında 10%, Afrika və Orta Şərqdə 5%, Asiya-Sakit okean regionunda 23% təşkil edir. Qeyd olunmalıdır ki, Çin elektron ticarət bazarında 44%-lə «elektron pul kisəsi» ilə əməliyyat aparan ən böyük paya sahib ölkədir.

Böyük Britaniya, İrlandiya, Danimarka və Türkiyədə hələ də ödəniş vasitəsi kimi kartlardan istifadəyə üstünlük verilsə də, Polşa, Finlandiya, Almaniya və Niderlandda alternativ ödəniş vasitələrinə daha çox önəm verilir. Xüsusilə Avropa ölkələrində ən populyar alternativ ödəmə metodu «elektron pul kisələri»dir. Ümumiyyətlə, dünyada «elektron pul kisələri» ilə aparılan əməliyyatların həcminin 2017-ci ilə qədər 1.656 trilyon ABŞ dollarına çatacağı gözlənilir.

Planşet və smartfonlardan geniş istifadə elektron ticarət bazarında yeni bir tendensiyanın sürətli inkişafına təkan vermişdir. Hazırda dünyada 1,4 milyarddan çox smartfon istifadə edilir və bu göstərici hər il 44% artır. «World Payments Report 2014» hesabatına əsasən, mobil telefonlar vasitəsilə aparılan ödənişlər 2015-ci ildə 60,8%-ə qədər artacaq, bunun müqabilində elektron ödənişlərin 15,9% azalacağı gözlənilir. «Alternativ ödənişlərə baxış» hesabatına əsasən, mobil telefonlar vasitəsi ilə aparılan ödənişlərin həcminin 2017-ci ildə 117 milyard ABŞ dollarına (e-ticarətin 3%-i) çatacağı gözlənilir.

Nəzərə almaq lazımdır ki, ölkəmiz sürətlə dünya iqtisadiyyatına inteqrasiya olunur və alıcılıq qabiliyyəti artır. Bu səbəbdən, elektron ticarətin həcminin ümumi ticarətdə payının artması qaçılmazdır. Bu da öz növbəsində müxtəlif ödəniş sistemlərinin tətbiqini və vergi orqanlarının müvafiq adaptasiyasını şərtləndirir.

*Vegilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin icmalı əsasında hazırladı:*
**A.NƏBİYEVA**

# Ötən il 454 min nəfərdən çox şəxsə aylıq və birdəfəlik sosial müavinət ödənilib

*Son bir ildə respublikada aylıq və birdəfəlik sosial müavinətlər ödənilən şəxslərin sayı 454 min 411 nəfər təşkil edib. Onlardan 338 min 216 nəfəri (74,4 faiz) aylıq, 116 min 195 nəfəri (25,6 faiz) isə birdəfəlik sosial müavinət alanlar olub.*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) AzərTAc-a bildiriblər ki, hesabat dövründə Azərbaycan Prezidentinin 17 mart 2014-cü il tarixli Fərmanına əsasən, müharibə veteranlarının sosial müdafiəsini yaxşılaşdırmaq məqsədilə onlara təyin olunan aylıq sosial müavinətlərin məbləği 21,6 faiz artırılıb. Həmçinin dövlət başçısının 27 dekabr 2013-cü il tarixli Fərmanı ilə 1 yanvar 2014-cü il tarixdən etibarən yeni sosial təminat növü kimi, beşdən çox uşağı olan qadınların 18 yaşına çatmamış uşaqlarının hər birinə görə 30 manat məbləğində aylıq sosial müavinətin təyin olunmasına başlanılıb. Hazırda ölkə üzrə 2 min 954 nəfər qadının 18 yaşına çatmamış 8 min 794 nəfər uşağı bu müavinətlə təmin olunur.

ƏƏSMN tərəfindən sosial müavinət və təqaüdlərin ödənişində şəffaflığın təmin olunmasına xüsusi diqqət yetirilir. Sosial müavinət və təqaüdlərə dair məlumatlar xüsusi proqram təminatı vasitəsilə vahid məlumat bazasında toplanıb. Sosial müavinət və təqaüd təyin olunanların siyahısı ƏƏSMN-nin rəsmi internet saytının «Fəaliyyət və xidmətlər» bölməsində müvafiq ad altında təqdim olunur. Ölkədə sosial müavinətlərin ödənişi plastik kartlarla bankomatlar vasitəsilə aparılır.

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

***Hörmətli oxucular, qəzetin bu sayından etibarən yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davamlı olaraq sizə təqdim edirik.***

Əlbəttə ki, ənənəvi (köhnə) qayda ilə ikili yazılış verən mühasiblərin yeni formada ikili yazılışı qəbul etməkdə çətinlikləri ola bilər, ancaq yeni ikili yazılış taktikasının beynəlxalq sferada tətbiq olunduğunu nəzərə alaraq, bütün mühasiblərin yeni ikili yazılışların verilməsi ilə bağlı biliklərə yiyələnməsi vacibdir. İlk olaraq yeni hesablar planı üzrə 111, 112 və 113 (sonra 101, 102 və 103) hesablara dair ikili yazılışları təqdim edəcəyik. Göstərilən nümunələr şərti və öyrətmə xarakter daşıyır.

**1. ƏDV ödəyicisi tərəfindən nağdsız qaydada avadanlığın alınması**

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 08.01.2014 | 113, Tamamlanmamış kapital qoyuluşları | Avadanlıq alınmışdır (ƏDV-siz məbləğ) | 10000 | |
| 08.01.2014 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Avadanlıq alınmışdır (ƏDV-siz məbləğ) | | 10000 |
| 08.01.2014 | 241, Əvəzləşdirilən ƏDV | Alınmış avadanlığın dəyərinin üzərindəki ƏDV | 1800 | |
| 08.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış avadanlığın dəyərinin üzərindəki ƏDV | | 1800 |
| 10.01.2015 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Alınmış avadanlıq istismara verilib | 10000 | |
| 10.01.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Alınmış avadanlıq istismara verilib | | 10000 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Avadanlığın ƏDV-siz dəyəri bank hesabından malsatana köçürülüb | 10000 | |
| 12.01.2015 | 222, Bankda olan cari manat hesabı | Avadanlığın ƏDV-siz dəyəri bank hesabından malsatana köçürülüb | | 10000 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Avadanlığın dəyərinin ƏDV-si ƏDV depozit hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb | 1800 | |
| 12.01.2015 | 223, ƏDV depozit hesabı | Avadanlığın dəyərinin ƏDV-si ƏDV depozit hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb | | 1800 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Və ya avadanlığın dəyərinin ƏDV-si bank hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb | 1800 | |
| 12.01.2015 | 223, ƏDV depozit hesabı | Və ya avadanlığın dəyərinin ƏDV-si bank hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb | | 1800 |
| 12.01.2015 | 521, Vergi öhdəlikləri | Malsatandan alınmış VHF üzrə avadanlığın dəyərinin ƏDV-si əvəzləşdirilir | 1800 | |
| 12.01.2015 | 241, Əvəzləşdirilən ƏDV | Malsatandan alınmış VHF üzrə avadanlığın dəyərinin ƏDV-si əvəzləşdirilir | | 1800 |

**2. ƏDV ödəyicisi tərəfindən nağd qaydada avadanlığın alınması**

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 08.01.2014 | 113, Tamamlanmamış kapital qoyuluşları | Avadanlıq alınmışdır (ƏDV ilə birlikdə məbləğ) | 11800 | |
| 08.01.2014 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Avadanlıq alınmışdır (ƏDV ilə birlikdə məbləğ) | | 11800 |
| 10.01.2015 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Alınmış avadanlıq istismara verilib | 11800 | |
| 10.01.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Alınmış avadanlıq istismara verilib | | 11800 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Avadanlığın ƏDV ilə birlikdə dəyəri kassadan malsatana (onun vəkalətnamə təqdim etdiyi şəxsə) ödənilib | 11800 | |
| 12.01.2015 | 221, Kassa | Avadanlığın ƏDV ilə birlikdə dəyəri kassadan malsatana (onun vəkalətnamə təqdim etdiyi şəxsə) ödənilib | | 11800 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Və ya avadanlığın ƏDV ilə birlikdə dəyəri təhtəlhesab şəxs vasitəsilə malsatana (onun kassasına) ödənilib | 11800 | |
| 12.01.2015 | 244, Təhtəlhesab məbləğlər | Və ya avadanlığın ƏDV ilə birlikdə dəyəri təhtəlhesab şəxs vasitəsilə malsatana (onun kassasına) ödənilib | | 11800 |

**3. ƏDV ödəyicisi tərəfindən nağdsız qaydada 100 % avans ödəmə yolu ilə avadanlığın alınması**

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 06.01.2015 | 243, Verilmiş qısamüddətli avanslar | Qabaqcadan avadanlığın ƏDV-siz dəyəri avans olaraq bank hesabından köçürülüb | 10000 | |
| 06.01.2015 | 222, Bankda olan cari manat hesabı | Qabaqcadan avadanlığın ƏDV-siz dəyəri avans olaraq bank hesabından köçürülüb | | 10000 |
| 06.01.2015 | 243, Verilmiş qısamüddətli avanslar | Eyni vaxtda avadanlığın dəyərinin ƏDV-si avans olaraq ƏDV depozit hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb (VHF-ya ehtiyac yoxdur) | 1800 | |
| 06.01.2015 | 223, ƏDV depozit hesabı | Eyni vaxtda avadanlığın dəyərinin ƏDV-si avans olaraq ƏDV depozit hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb (VHF-ya ehtiyac yoxdur) | | 1800 |
| 06.01.2015 | 243, Verilmiş qısamüddətli avanslar | Və ya eyni vaxtda avadanlığın dəyərinin ƏDV-si avans olaraq bank hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb (VHF-ya ehtiyac yoxdur) | 1800 | |
| 06.01.2015 | 222, Bankda olan cari manat hesabı | Və ya eyni vaxtda avadanlığın dəyərinin ƏDV-si avans olaraq bank hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb (VHF-ya ehtiyac yoxdur) | | 1800 |
| 08.01.2014 | 113, Tamamlanmamış kapital qoyuluşları | Avadanlıq alınmışdır (ƏDV-siz məbləğ) | 10000 | |
| 08.01.2014 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Avadanlıq alınmışdır (ƏDV-siz məbləğ) | | 10000 |
| 08.01.2014 | 241, Əvəzləşdirilən ƏDV | Alınmış avadanlığın dəyərinin üzərindəki ƏDV | 1800 | |
| 08.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış avadanlığın dəyərinin üzərindəki ƏDV | | 1800 |
| 10.01.2015 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Alınmış avadanlıq istismara verilib | 10000 | |
| 10.01.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Alınmış avadanlıq istismara verilib | | 10000 |
| 10.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Avadanlığın avans olaraq ödənilən ƏDV-siz dəyəri zaçot edilir | 10000 | |
| 10.01.2015 | 243, Verilmiş qısamüddətli avanslar | Avadanlığın avans olaraq ödənilən ƏDV-siz dəyəri zaçot edilir | | 10000 |
| 10.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Avadanlığın avans olaraq ödənilən ƏDV-si zaçot edilir | 1800 | |
| 10.01.2015 | 243, Verilmiş qısamüddətli avanslar | Avadanlığın avans olaraq ödənilən ƏDV-si zaçot edilir | | 1800 |
| 10.01.2015 | 521, Vergi öhdəlikləri | Malsatandan alınmış VHF üzrə avadanlığın dəyərinin ƏDV-si əvəzləşdirilir | 1800 | |
| 10.01.2015 | 241, Əvəzləşdirilən ƏDV | Malsatandan alınmış VHF üzrə avadanlığın dəyərinin ƏDV-si əvəzləşdirilir | | 1800 |

*Ardı növbəti sayımızda*

# Cinayətkar dəstə üzvləri ifşa olundu

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən araşdırılan növbəti çoxepizodlu və mürəkkəb tərkibli cinayətin ibtidai istintaqı başa çatmışdır.

İstintaq zamanı müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının vətəndaşları - əvvəllər məhkum olunmuş İlkin Cahangir oğlu Abbasov və Ələkbər Hüseyn oğlu İsmayılov qabaqcadan əlbir olaraq bir neçə nəfərdən ibarət mütəşəkkil cinayətkar dəstə təşkil etməklə 2011-2013-cü illər ərzində 106 müəssisə yaradaraq külli miqdar təşkil edən 1 milyon 702 min 467 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmışlar.

İ.Abbasov Ə.İsmayılovu təsis etdiyi «Nur Yapı Group» MMC-yə, Fikrət Əliəkbər oğlu Kazımovu «Venta Group» MMC-yə, Allahyar Adaşil oğlu Mirzəyevi 54 sayda MMC-yə, Dərgah Fəzail oğlu Əsgərovu 23 sayda MMC-yə, Samir İzmir oğlu Fətullayevi isə 28 sayda MMC-yə direktor vəzifəsinə təyin etdirsə də, həmin müəssisələrə faktiki özü rəhbərlik etmiş, MMC-lərin nizamnamələrinə uyğun sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq, vergitutma obyekti olan və vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsini nəzərdə tutan əməliyyatlar aparmışdır. O, vergi ödəyicilərinin fəaliyyətinə məsuliyyət daşıyan və müvafiq vergilərin ödənilməsinə cavabdeh şəxs olduğu halda, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.1, 16.1.4, 16.1.6, 53,1, 72, 77.3, 78.1, 104.1, 105.1, 155.1, 157, 177.1, 177.2 və 220.1-ci maddələrinin tələblərini pozaraq, vergi orqanına ya bəyannamə təqdim etməmiş, ya da təqdim etdiyi bəyannamələrə gəlirlər və xərclər barədə bilərəkdən təhrif olunmuş məlumatlar daxil etməklə külli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmışdır.

İlkin Abbasov atası - əvvəllər dəfələrlə məhkum edilmiş, sonuncu dəfə Bakı Ağır Cinayətlər Məhkəməsininn 04.12.2014-cü il tarixli hökmü ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə təqsirli bilinərək 8 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş, hazırda həmin iş üzrə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Bakı istintaq təcridxanasında saxlanılan Cahangir Oktay oğlu Abbasov ilə də cinayət əlaqəsinə girərək, atasının direktor olduğu «Qlobus M» MMC-nin Samux rayonunun Poylu və Salahlı kəndlərində yerləşən hər biri 180 yerlik orta məktəb binalarının tikintisi zamanı görülmüş işlərin təhvil verilməsinə dair aktları (forma 2) atasının əvəzinə imzalayaraq onunla birlikdə 2011-ci ilin dekabr ayı üzrə 152 min 446 manat məbləğində əlavə dəyər vergisini dövlət büdcəsinə ödəməkdən yayınmışdır. Müəyyən edilmişdir ki, Cahangir Abbasov «Qlobus M» MMC-nin təsisçisi Ələkbər İsmayılov, Dərgah Əsgərov və öz oğlu İlkin Abbasovla qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək müxtəlif vaxtlarda onları «Qlobus M» MMC-yə direktor vəzifəsinə təyin etmiş, lakin həmin məhdud məsuliyyətli cəmiyyətə faktiki özü rəhbərlik edərək 914 min 338 manat, bundan əlavə, «Tərtər inşaat» MMC-nin fəaliyyətinə də faktiki rəhbərlik edərək 3 milyon 748 999 manat, ümumilikdə külli miqdar təşkil edən 4 milyon 663 min 338 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmışdır.

Ə.İsmayılov «Nur Yapı Group» MMC-nin direktoru vəzifəsində işləyərkən I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin aparılmasına dair xüsusi razılıq (lisenziya) almadan «Cənubtikintiservis» ASC-nin Bakı şəhəri G. Əliyev küçəsi 25 ünvanından elektrik avadanlıqlarının yeni tikilmiş elektrik stansiyasının binasına köçürülməsi, kabel xətlərinin çəkilməsi, şəbəkəyə qoşulması və layihə-topoqrafik-planalma işlərinin yerinə yetirilməsi üzrə qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq, xeyli miqdar təşkil edən 2 milyon 863 min manat məbləğində qanunsuz gəlir əldə etmişdir. O, «Səma inşaat» MMC-nin direktoru vəzifəsində işləyərkən də Salyan rayonunda Yolüstü-Kürsəngi kəndlərini birləşdirən avtomobil yolunun əsaslı təmiri işlərini qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq yerinə yetirmiş və külli miqdar təşkil edən 722 min 895 manat məbləğində gəlir əldə etmişdir.

Araşdırma zamanı mütəşəkkil cinayətkar dəstənin üzvləri dəfələrlə törətdikləri əməllərdən yaxa qurtarmağa və istintaqı çaşdırmağa, həqiqətin ortaya çıxmasına maneçilik törətməyə çalışmış, İlkin Cahangir oğlu Abbasov, Dərgah Fəzail oğlu Əsgərov və Allahyar Adaşil oğlu Mirzəyev isə müəyyən müddət istintaq orqanından gizlənmişlər. Lakin qeyd olunan şəxslər tərəfindən göstərilən cinayət əməllərinin törədilməsi ibtidai araşdırma zamanı toplanmış təkzibolunmaz sübutlarla - ilkin mühasibat sənədləri, şahid ifadələri, telefon əlaqələrinin təhlili və yoxlanması, tanınma protokolları, keçirilmiş baxışlar, ekspertiza rəyləri və digər istintaq dəlilləri ilə tam təsdiqini tapmışdır. Cinayət işi üzrə mütəşəkkil cinayətkar dəstənin üzvlərinə qarşı verilmiş mülki iddianın ümumi məbləği 6 milyon 611 min 96 manat təşkil etmişdir.

Qeyd olunanlara əsasən, cinayətkar dəstənin bütün üzvlərinə 24 dekabr 2014-cü il tarixdə Cinayət Məcəlləsinin 213.2.1 və 213.2.2-ci maddələri üzrə ittihamlar elan edilmişdir. Yasamal Rayon Məhkəməsinin qərarı ilə 2014-cü ilin dekabr ayında cinayətkar dəstənin digər üzvləri barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Cinayət işi ittiham aktı ilə təsdiq olunması üçün Respublika Baş Prokurorluğuna göndərilmişdir.

## Borclu vergi ödəyiciləri

*Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin I bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.*

*Əksər vergi ödəyiciləri vergilərini müəyyən olunmuş müddətlərdə, müxtəlif səbəblərdən yaranmış vergi borclarını isə mümkün qədər tez ödəməyə çalışsalar da, bəziləri qanunvericiliyin tələblərini pozaraq onların dövlət büdcəsinə vaxtında ödənilməsini təmin etmirlər ki, bu da büdcəyə vergi daxilolmalarına mənfi təsir göstərir. Belə halların aradan qaldırılması üçün Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsi tərəfindən aparılan mütəmadi təhlillər əsasında, imkanı olmasına baxmayaraq, vergi borcunu ödəməkdən yayınan vergi ödəyicilərinə qarşı digər qanunamüvafiq tədbirlər görülməklə yanaşı, onların siyahısı həftədə bir dəfə «Vergilər» qəzetində dərc edilir və artan yekunla nazirliyin rəsmi veb-saytında yerləşdirilir. Borcunu ödəyən vergi ödəyicisinin adı siyahıdan çıxarılır.*

*Adlarının ictimaiyyətə açıqlanmasını və bundan irəli gələ biləcək ciddi problemlərlə üzləşmək istəməyən vergi ödəyiciləri dövlət büdcəsinə borclarının ləğv olunmasını təmin etməlidirlər.*

| S/N | Vergi orqanı | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon | Obyektin adı |
|---|---|---|---|---|
| 1 | Bakı VD | «BAKLİFT-2» ixtisaslaşdırılmış istehsalat idarəsi | Bakı şəhəri Nizami rayonu | Ofis |
| 2 | Bakı VD | Xətai Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi | Bakı şəhəri Xətai rayonu | MKTB - ofis |
| 3 | Bakı VD | «BAKLİFT-1» ixtisaslaşdırılmış istehsalat idarəsi | Bakı şəhəri Nəsimi rayonu | Ofis |
| 4 | Bakı VD | Nəsimi Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi | Bakı şəhəri Nəsimi rayonu | Ofis |
| 5 | Bakı VD | «Kapital Qrup» MMC | Bakı şəhəri Yasamal rayonu | İcarə obyekti |
| 6 | Bakı VD | Suraxanı Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi | Bakı şəhəri Suraxanı rayonu | Avtodayanacaq |
| 7 | Bakı VD | «Oyl Ənd Qəs Proserv» MMC | Bakı şəhəri Xətai rayonu | İstehsal obyekti |
| 8 | Bakı VD | «Sabunçu Elm-İstehsalat Birliyi» törəmə ASC | Bakı şəhəri Sabunçu rayonu | İstehsal obyekti |
| 9 | Bakı VD | Yasamal Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi | Bakı şəhəri Yasamal rayonu | İdarə |
| 10 | Bakı VD | «Qaradağ-And» MMC | Bakı şəhəri Qaradağ rayonu | Ofis |
| 11 | Bakı VD | «Azərşin» ASC | Bakı şəhəri Nərimanov rayonu | İcarə obyekti |
| 12 | Bakı VD | «Diplomat 2008» mənzil-tikinti kooperativi | Bakı şəhəri Nəsimi rayonu | Ofis |
| 13 | Bakı VD | «Balaxanı maşınqayırma zavodu» törəmə ASC | Bakı şəhəri Sabunçu rayonu | İstehsal obyekti |
| 14 | Bakı VD | Sabunçu Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi | Bakı şəhəri Sabunçu rayonu | Ofis |
| 15 | Bakı VD | «Betta» MMC | Bakı şəhəri Yasamal rayonu | «Betta» security |
| 16 | Bakı VD | «Bakı dəniz balıq limanı» ASC | Bakı şəhəri Suraxanı rayonu | İcarə obyekti və satış |
| 17 | Bakı VD | Sabunçu Rayon Kommunal-Təsərrüfat İdarəsi | Bakı şəhəri Sabunçu rayonu | Kommunal təsərrüfatı idarəsi |
| 18 | Bakı VD | Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi | Bakı şəhəri Səbail rayonu | Səbail rayonu, MKTB-nin əsas binası |
| 19 | Bakı VD | Qaradağ rayon kanalizasiya idarəsi | Bakı şəhəri Qaradağ rayonu | Kanalizasiya idarəsi |
| 20 | Bakı VD | «Akhundovskiy» mənzil-tikinti kooperativi | Bakı şəhəri Səbail rayonu | İcarə obyekti |
| 21 | 2 saylı ƏVD | «Sumqayit superfosfat» ASC | Sumqayıt şəhəri | |
| 22 | 2 saylı ƏVD | Əczaçılıq və tibbi sənaye birliyinin mərkəzi aptek bazası | Sumqayıt şəhəri | |
| 23 | 2 saylı ƏVD | Abadlaşdırma təmir-tikinti idarəsi | Sumqayıt şəhəri | |
| 24 | 2 saylı ƏVD | Lift servisi birliyi | Sumqayıt şəhəri | Ofis |
| 25 | 2 saylı ƏVD | Abşeron Rayon Mənzil-Kommunal Təsərrüfatı İstehsalat-istismar təmiri birliyi | Abşeron rayonu | |
| 26 | 5 saylı ƏVİ | Şirvan Şəhər İcra Hakimiyyətinin mənzil təsərrüfatı idarəsi | Şirvan rayonu | İnzibati bina |
| 27 | 6 saylı ƏVİ | Lənkəran Şəhər Mənzil İstismar və Kommunal Müəssisələr İdarəsi | Lənkəran rayonu | İnzibati bina |
| 28 | 11 saylı ƏVD | Tərtər elektromexanika zavodu | Tərtər rayonu | Elektrotexniki zavod |
| 29 | 11 saylı ƏVD | Mingəçevir şəhər mühafizə şöbəsi | Mingəçevir şəhəri | |
| 30 | 12 saylı ƏVD | Azərbaycan Dövlət Dəmir Yolu «Yol təsərrüfatı» istehsalat birliyinin «Qızılca» qırma daş zavodu | Göygöl rayonu | «Qızılca» qırma daş zavodu |



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Auditorun müəssisəyə dəvət edilməsi, auditə hazırlıq və müqavilənin bağlanması

***Auditor xidmətlərinin dəyəri***

Auditor xidməti pullu xidmətlər növünə aiddir və bu xidmət bazarında qiymətlərlə razılaşmayan təsərrüfat subyektləri az deyildir. Bəziləri isə auditə əhəmiyyət verməyərək düşündükləri kimi, «artıq xərcə» getmək istəmirlər. Auditorların da fərqli qiymətlər təklif etməsi audit bazarında müxtəlif yanaşmaların olduğunu deməyə əsas verir. Ona görə də sifarişçilərdə auditor xidmətlərinin qiymətləri barədə obyektiv təsəvvür yaranmaqda çətinliklər yaranır. Təsərrüfat subyektlərinin rəhbərləri cəlb etdikləri auditorla müqavilə bağlamazdan əvvəl Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2005-ci il 23 dekabr tarixli 159/5 saylı qərarı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri» ilə tanış ola bilərlər. Eyni həcmli audit işinə ayra-ayrı auditorlar tərəfindən müxtəlif qiymətlər təklif oluna bilər. Belə halda sifarişçi təşkilat seçim etməkdə çətinlik çəkir. Təsərrüfat subyektlərinin rəhbərləri bilməlidirlər ki, aşağıda göstərilənlər auditor xidmətinin dəyərini əhəmiyyətli dərəcədə dəyişir:

♦ *Müəssisənin illik dövriyyəsi.* Mal satışının, görülən işlərin və göstərilən xidmətlərin ƏDV-siz dəyəri və vergi mükəlləfiyyəti qiymətlərə təsir edən əsas amildir. Bəzən dövriyyənin az olmasına baxmayaraq, müəssisənin vergi yükü artıq olduqda (ƏDV, mənfəət, əmlak vergisi ödəyicisi olduqda) qiymətlər artırıla bilər.

♦ *Müəssisənin fəaliyyət növü.* Müəssisənin fəaliyyətinin çoxluğu və dairəsi, filiallarının və ya nümayəndəliyinin olması, anbarlarının sayı əməliyyatların həcminə və auditin aparılması vaxtına təsir edir.

♦ *İşçilərin sayı.* İşçilərin sayının çox olması müəssisədə çoxçeşidli, qarışıq və yüksək nəzarəedici xassəyə malik əməliyyatların baş verməsindən xəbər verir. Bu isə audit zamanı müəyyən araşdırma səviyyəsi tələb edir.

♦ *Sənəd dövriyyəsi.* Müəssisənin dövriyyəsindən asılı olmayaraq, müştərilərdən daxil olan və sifarişçilərə təqdim olunan qaimə-fakturalar, hesab-fakluralar və təhvil-təslim aktlarının sayı, daxil olan və təqdim olunan bank ödəniş tapşırıqlarının və kassa mədaxil və məxaric orderlərinin sayı, sənədlərin tamlığı və düzgünlüyü, aktiv valyuta hesablarının sayı, malsatanların və sifarişçilərin sayı çox və ya az ola bilər. Böyük dövriyyələr bir neçə sənədlə rəsmiləşdirilə bilər, lakin auditin aparılmasına az vaxt sərf olunduğundan, auditor xidmətinin qiymətləri aşağı ola bilər. Yaxud əksinə, dövriyyə aşağıdır, lakin kiçik məbləğlərlə rəsmiləşdirilən çoxsaylı sənədləşmələr olarsa, auditin aparılmasına çox vaxt sərf olunduğundan, qiymətlər yuxarı olacaqdır.

♦ *Tətbiq olunan mühaibat uçotu proqramı.* Mükəmməl mühasibat proqramı tətbiq olunan müəssisələrdə audit sürətlə aparıla bilər. Audit üçün zəruri olan məlumatları mühasibat proqramlardan əldə etmək və nəzarəti həyata keçirmək asandır. Kağız daşıyıcılarında və ya standartlardankənar formalarda uçotu qurulan, əməliyyatları uyğun qaydada proqramda yerləşdirilməyən, düzülməyən müəssisələrdə auditin aparılmasında çətinliklər olacağı istisna deyil.

♦ *Müəasisədə daxili nəzarət qaydalarının vəziyyəti.* Auditor öz işinin nəticələrini qanunvericiliyə və müəssisədə uçot siyasətinə uyğun tətbiq olunan daxili nəzarət qaydalarına əsasən qiymətləndirir. Daxili nəzarət qaydaları mükəmməl olmayan və ya ona düzgün riayət edilməyən müəssisələrdə auditin nəticələrinin qiymətləndirilməsi o qədər də rahat deyil.

♦ *Auditin nəticələrinin riski.* Bəzən bir saat ərzində qiymətləndirilərək rəy verilməsi mümkün olan bir əməliyyat üçün auditor tərəfindən verilən rəy (hesabat) auditoru gözlənilməz vəziyyətlərə salır. Məsələn, mübahisəli məsələlərin baş verdiyi əməliyyatlar üzrə verilən rəyə görə auditor gələcəkdə məhkəmə qarşısında böyük izahlar vermək məcburiyyətində qala bilər. Yaxud da ziddiyyətli məqamlar üzrə qısa vaxtda rəy verən auditor rəydə göstərdiyini sübut etməyin çətinliyini və məsuliyyətini nəzərə alaraq, auditor xidmətinin qiymətini artırmaq məcburiyyətində olur.

♦ *Ezamiyyə xərcləri.* Auditin aparıldığı yer kənardadırsa, yol və mehmanxana xərcləri auditin dəyərinə əlavə olunur.

♦ *Digər faktorlar.* Məsələn, əvvəlki dövrlərlə auditin aparılması, mühasibin dəyişilməsi, axırıncı vergi yoxlamasının dövrü də auditə sərf olunan vaxtın müəyyənləşdirilməsinə təsir göstərir.

Bütün bu amillər, yəni əməliyyatların həcmi və tətbiq olunan texniki şərait auditor yoxlamasına sərf edilən əməyə və vaxta təsir etdiyinə görə, auditin qiymətləri müxtəlif tətbiq oluna bilər. Digər tərəfdən də sifarişçilərlə uzunmüddətli münasibətlər, həmçinin sifarişçidən asılı olmayan amillər, məsələn, auditor təşkilatının əməkdaşı üçün çəkilən investisiya xərcləri də dolayı xərclər kimi qiymətlərə mütləq təsir edir. Bir sözlə, sifarişçi təsərrüfat subyekti audit üçün zəruri məlumatları vaxtlı-vaxtında təqdim etdikdə, audit hesabatını planlaşdırılan müddətdə hazırlamaq olar.

Hazırda audit bazarında qiymətlər bir nəfər yerli peşəkar auditor əməyindən istifadə olunmaqla maliyyə hesabatlarının auditi üzrə xidmətin dəyəri orta hesabla xidmətin başa çatdırılması 3 günədək mümkün olduqda 1000 manatadək, 4-5 gün ərzində mümkün olduqda 1500-2500 manat, 6-10 gün ərzində mümkün olduqda 3000-4500 manat, 10 gündən artıq olduqda isə 5000-10000 manat dəyərində müəyyənləşdirilir. Öz brendlərindən istifadə edən böyük auditor təşkilatları isə qiymətləri dəfələrlə artırırlar. Çünki öz brendlərini qoruyub saxlamaqdan ötrü böyük xərclər çəkən və işçiləri, əməkdaşları üçün iri investisiyalar qoyan beynəlxalq aləmdə tanınan auditor təşkilatları təklif etdiyi auditor xidmətlərinin dəyərini daha da artırmaq məcburiyyətində qalırlar.

## vergi təqvimi

| FEVRAL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| **2** | 3 | 4 | 5 | 6 | 7 | **8** |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | **15** |
| **16** | 17 | 18 | 19 | **20** | 21 | **22** |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

2 fevral – «(10.1)»
16 fevral – «(5)»
20 fevral – «(1-1)», «3», «4», «8», «10.1», «10.2», «10.3»

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.
Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.
**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür. Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.
**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.
Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi or-

beynəlxalq panoram

# Özbəkistanda hüquqi şəxslərin mənfəət vergisi azaldılıb

Yanvarın 1-dən Özbəkistanda hüquqi şəxslərin mənfəət vergisi üzrə baza dərəcəsi 8%-dən 7,5%-dək aşağı düşüb. Bu dəyişikliyə görə, 2015-ci ildən xırda firmalar və kiçik müəssisələr, habelə fermer təsərrüfatları üçün vahid sosial ödənişlər 25%-dən 15%-ə, xırda firma və kiçik müəssisə olan tikinti təşkilatları üzrə vahid vergi ödənişinin dərəsəsi isə 6%-dən 5%-ə endirilib.

Bundan əlavə, vətəndaşların əməkhaqqı şəklində əldə etdikləri gəlirdən tutulan icbari sığorta haqları 6,5%-dən 7%-ə qaldırılıb. Bu halda hüquqi şəxslərin vahid sosial ödənişinin dərəcəsi



25% (o cümlədən pensiya fonduna ödəmələri 24,8%), habelə müəssisə və təşkilatların mal və xidmətlərin satışı həcmindən icbari ödənişlərinin dərəcəsi 1,6% səviyyəsində saxlanılır.

Fiziki şəxslərin gəlirlərinə isə dördpilləli vergitutma dərəcəsi tətbiq olunur. 1-ci qrup üzrə vergi minimum əməkhaqqının (118400 sum, yaxud Özbəkistan Mərkəzi Bankının məzənnəsi üzrə 49,5 dollar) 1 mislinədək «0» dərəcə ilə, sonrakı qruplar üzrə isə artan dərəcələrlə tutulacaq. Bundan başqa, bir sıra vergilər, o cümlədən fiziki şəxslərin əmlak vergisi, torpaq vergisi, tütün məmulatları və alkoqollu içkilər üzrə aksiz vergisi indeksləşdirilib.

Özbəkistanın İqtisadiyyat Nazrliyinin hesablamalarına əsasən, vergitutma sisteminin sadələşdirilməsi və vergi inzibatçılığının gücləndirilməsi sayəsində ölkədə vergi yükü ÜDM-in 1996-cı ildəki 41%-indən 2013-cü ildəki 20,5%-nədək azalmışdır.

# Ukraynada avtomobillərə vergi tətbiq ediləcək

*Ölkə qanunvericiliyindəki yeniliklərə əsasən, benzin və ya dizel mühərrikinin həcmi 3 min kub smdən artıq, yaşı isə 5 ilədək olan «dəbdəbəli» avtomobil sahibləri 25 min qrivna (1 qrivna=0,0848 manat) məbləğində illik vergi ödəməlidirlər.*

Bundan əlavə, yanvarın 1-dən avtobuslara və yük avtomobillərinə yeni aksiz tətbiq edilib. Yeni avtobusların mühərrikin 1 kub sm-nə 0,003 avro, istismarda olanların 1 kub sm-nə 0,007 avro məbləğində aksiz müəyyən edilib. 8 ildən artıq istismar olunan avtobuslara isə vergi dərəcəsi 20 dəfə artıb.



Tonnajdan asılı olaraq yeni yük maşınlarının mühərrikinin hər kub sm-nə aksiz dərəcəsi 0,01-0,016 avro səviyyəsində müəyyən edilir. İstismar müddəti 5 ilədək olan avtomobillərin aksiz dərəcəsi 2 dəfə, 8 ildən çox istifadə olunanların isə 20 dəfə artıb.

Bundan əlavə, elektrik avtomobillərinə də vergiqoyma tətbiq olunub. Bir elektrik mühərrikinin aksiz dərəcəsi 109 avro təşkil edəcək.

Mühərrikin həcmindən və istismar müddətindən asılı olaraq minik avtomobillərinə isə aksiz yığımı artacaq.

Kommersiya kimi, yəni aksiz ödənişi olmadan gətirilən, lakin sonradan başqa məqsədlər üçün yenidən quraşdırılan minik avtomobillərdən aksiz vergisi tutulacaq.

Vergilərin artmasının kompensasiyası məqsədilə hökumət avtomobillərin ilkin qeydiyyatı üçün mühərrikin həcmindən asılı olaraq 100 kub.sm. görə 3,82 qrivnadan 69,99 qrivnayadək məbləğdə alınan rüsumu ləğv edib.

Xarici ölkələrin təcrübəsi

# Niderland Krallığı: mənfəət vergisi

♦ ***Amortizasiya məbləğləri:*** Ölkədə sahibkarlıq məqsədilə istifadə olunan maddi aktivlərin amortizasiyası müəssisənin mənfəət və ya zərərlə işləməsindən asılı olmayaraq, məcburidir. Amortizasiya aktivlərin qalıq dəyəri, istifadə müddəti, likvid dəyərinə əsasən hesablanır. Dəyəri 450 avrodan az olan aktivlər alındığı ildə tam amortizasiya oluna bilər.

Amortizasiya həm düzxətli, həm də qalıq dəyərinin azalması metodu ilə tətbiq edilə bilər. Lakin amortizasiya metodunun birindən digərinə dəyişdirilməsi yalnız iqtisadi amillərə əsaslanır. Qalıq dəyəri metoduna əsasən, amortizasiyanın maksimum dərəcəsi illik 20%-dir.

İl ərzində alınmış qudvil (müəssisənin prestiji, piyar və s.), patentlər, konsessiyalar 10 il ərzindən illik maksimum 10% dərəcə ilə amortizasiya oluna bilər.

Müəssisənin özünün formalaşdırdığı qudvil və patentlər kapital xarakterli əsas vəsait hesab olunmadığından amortizasiya edilmir.

Torpaq və bina tipli daşınmaz əmlaklar balans dəyəri «minimum dəyərdən» aşağı olmadığı aşağıdakı şərtlərlə amortizasiya olunur:

«Minimum dəyər» dedikdə:

• İcarəyə verilən daşınmaz əmlak üzrə «Daşınmaz əmlakın qiymətləndirilməsi» Qanununa («WOZ dəyəri») əsasən amortizasiyanın tətbiq edildiyi təqvim ili üçün hesablanmış dəyərin 100% həcmi. Bu halda daşınmaz əmlak investisiya daşınmaz əmlakı hesab olunur;

• Daşınmaz əmlak vergi ödəyicisi, onunla əlaqəli olan müəssisə və ya digər şəxs tərəfindən istifadə olunursa, «WOZ dəyəri»nin 50% həcmi. Vergi ödəyicisi ilə əlaqəli olan müəssisə dedikdə, vergi ödəyicisinin müəssisənin səhmlərinin ən azı 5%-nə sahib olduğu hal başa düşülür. Əlaqəli şəxs isə vergi ödəyicisinin həyat yoldaşı, birgə yaşadığı şəxs və ya uşaqlarıdır.

♦ ***Zərərin keçirilməsi:*** Sahibkarlıq fəaliyyəti zamanı yaranmış zərər növbəti ilin zərəri hesabına əvəzləşdirilmək məqsədilə geri və ya 9 il müddətinə gələcək dövrə aid edilə bilər. Dünya maliyyə böhranı ilə əlaqədar 2009, 2010, 2011-ci illər üzrə yaranmış zərəri müəssisələr 3 il müddətinə geri aid edə bilərlər. Bu seçimi edən müəssisələr üçün zərərin növbəti dövrə keçirilməsi 6 illə məhdudlaşır.

Müəssisənin sahibliyində dəyişiklik olduğu hallarda zərərin keçmiş və gələcək dövrün mənfəəti hesabına silinməsinə məhdudiyyət qoyulur. Sahibkarlıq fəaliyyətini dayandırmış müəssisənin zərəri onun səhmlərinin ən azı 70%-nin əvvəlki fərdi səhmdarlarda qaldığı hallarda icazə verilir. Əgər müəssisə öz sahibkarlıq fəaliyyətinin həcmini 70%-dən çox azaldarsa və onun səhmlərinin ən azı 70%-i əvvəlki fərdi səhmdarlarda qalarsa, yaranmış zərər yalnız qalan sahibkarlıq fəaliyyəti həcminin mənfəəti hesabına silinə bilər.

♦ ***Ödəmə mənbəyində vergilər:*** Dividendlərdən 15% dərəcə ilə ödəmə mənbəyində vergi tutulur. Eyni dərəcə faiz gəlirlərinə də tətbiq olunur. Niderlandın rezident müəssisəsi və ya qeyri-rezidentin daimi nümayəndəliyinə münasibətdə iştirak azadolması müddəalarına əsasən, ödəmə mənbəyində vergiyə cəlb olunmur.

Ödəmə mənbəyində tutulmuş vergilər müəssisənin mənfəət vergisinin öhdəliyi hesablanarkən nəzərə alınır. Lakin əgər benefisiar müəssisə digər müəssisənin səhm və ya digər iştirak payını dividend və ya faizin ödənilməsinə 10 gün qalmış alarsa və 3 ay ərzində alınmış səhm və ya iştirak payını satarsa, ödənilmiş faiz və dividendlərin gəlirdən çıxılmasına yol verilmir.

♦ ***Stimullaşdırıcı güzəştlər:***

*<u>Ümumi investisiya çıxılmaları:</u>* Bunlar müəyyən növ aktivlərə münasibətdə tətbiq olunan kiçik həcmli investisiyaları əhatə edir. Xaricdəki daimi nümayəndəlikdə istifadəsi nəzərdə tutulan aktivlərə - torpaq, şəxsi evlər, şəxsi avtomobillər, qiymətli kağızlar, konsessiyalar, heyvanlar və s. çəkilən investisiya xərcləri bu güzəştin subyekti deyildir. Müəssisənin özünün yaratdığı aktivlərə güzəşt tətbiq oluna bilər. Bu güzəşt üçün yaxın ailə üzvləri arasındakı transaksiyalar istisna olunur. 2012-2013-cü illər üçün investisiya çıxılması tətbiq edilməsi üçün investisiya məbləği 2300 - 306.931 avro olmalıdır.

*<u>Enerjiyə qənaəti nəzərdə tutan investisiya çıxılmaları:</u>* Enerjiyə qənaət məqsədilə çəkilmiş illik investisiya xərclərinin 41,5%-nin gəlirdən çıxılmasına yol verilir. Bu məqsədlə investisiya xərclərinin 118 milyon avrodan artıq hissəsinə çıxılma tətbiq edilmir.

Ətraf mühit yönümlü investisiya çıxılması:

Ekologiyaya müsbət təsir edən layihələrin icrası məqsədilə çəkilmiş investisiya xərcləri aşağıdakı şərtlər daxilində gəlirdən çıxıla bilər:

1) investisiya ətraf mühit yönümlüdürsə;

2) investisiya ixtisaslaşmış aktivlər haqqında qanunvericilikdə qeyd olunmuşdursa;

3) investisiyanın həcmi 2500 avrodan artıqdırsa gəlirdən çıxıla bilər.

| İnvestisiya məbləği (avro) | | Güzəşt (çıxılma) |
|---|---|---|
| 0 | 2300 | 0 |
| 2300 | 55 248 | investisiyanın məbləğinin 28%-i |
| 55 248 | 102 311 | 15 470 avro |
| 102 311 | 306 931 | 15 470 - 102 311 avrodan artıq investisiyanın məbləğinin 7,56%-i |
| | 306 931-dən artıq | 0 |

Çıxılmanın həcmi investisiyanın növündən asılı olaraq 36%, 27% və 13,5%-dir. Maksimum gəlirdən çıxılma məbləği 25 milyon avro təşkil edir. Lakin enerjiyə qənaəti nəzərdə tutuan investisiya çıxılması güzəştini seçmiş müəssisələrə bu güzəşti tətbiq etməyə yol verilmir.

*<u>Araşdırma və İnkişaf (Research&Development) işlərinə çəkilən xərclərin gəlirdən çıxılması:</u>* Müəssisələrin (işəgötürənlər) araşdırma və inkişaf (R&D) sahəsində məşğul olan işçilərinin illik əməkhaqqı 250 min avro həddinədək olduqda onun 35%-nin (2013-cü ildə 200 min avroyadək 38%) gəlirdən çıxılmasına yol verilir. Bu fəaliyyətə yeni başlamış müəssisələr üçün güzəşt 50% təşkil edir. Yuxarıda göstərilən həddən artıq əməkhaqqı üçün 14% çıxılma tətbiq oluna bilər. Qeyd edilən fəaliyyətlə məşğul olan hər bir qurum üçün icazə verilən çıxılmanın ümumi həddi 14 milyon avro müəyyən olunmuşdur. R&D fəaliyyəti sistemli şəkildə Niderlandda aparılmalı, elmi araşdırmaları və yeni texnologiyaların tətbiqini nəzərdə tutmalıdır.

R&D fəaliyyətindən gəlir əldə edən müəssisələr 2013-cü il yanvarın 1-dən bu fəaliyyət üzrə çəkilmiş xərclərin 60%-ni gəlirdən çıxa bilər.

*<u>Sürətli amortizasiya:</u>* Niderland hökuməti tərəfindən müəyyən olunan aktivlərin alınmasına çəkilən xərclər alındığı il sürətli amortizasiya edilərək gəlirdən birbaşa çıxıla bilər. Bu cür aktivlərə ekoloji cəhətdən zərərsiz texnologiyalar, bir sıra konkret regionda istifadəsi nəzərdə tutulan aktivlər, R&D sahəsində istifadə məqsədi ilə alınmış texnologiyalar aiddir.

♦ ***Vergi dövrü:*** Vergi ili təqvim ilidir. Mənfəət vergisi ödəyiciləri öz fəaliyyət qaydalarına uyğun olaraq fərqli vergi ili seçə bilərlər. Vergi tutulan məbləğ vergi ilində əldə edilmiş gəlirdən ibarətdir.

♦ ***Vergi bəyannamələrinin təqdim edilmə müddəti:*** Mənfəət vergisi bəyannaməsinin təqdim edilməsinin son müddəti vergi orqanı tərəfindən müəssisəyə bəyannamə forması göndərilərkən müəyyən olunur. Müəssisəyə bəyannamə forması göndərildikdən sonra 1 ay ərzində mənfəət vergisi bəyannaməsi təqdim edilməlidir. Normal qaydada mənfəət vergisi bəyannaməsi vergi ilindən sonrakı təqvim ilinin 1 iyun tarixinədək təqdim edilməlidir. Müəssisənin müraciətinə əsasən bəyannamənin təqdim edilməsi vaxtı uzadıla bilər.

♦ ***Verginin ödənilmə müddəti:*** İlkin qiymətləndirmə əsasında cari vergi ödənişləri vergi ilində ödənilir. Əgər ilkin qiymətləndirmə əsasında hesablanmış və ödənilmiş vergi yekun qiymətləndirmədən çox olarsa, ödənilmiş vergi məbləği ona hesablanmış faizlə birlikdə vergi ödəyicisinə qaytarılır. Hesablanmış faiz vergi tutulan gəlirə daxil edilir.

Yekun vergi öhdəliyi vergi ilindən sonrakı 3 il ərzində hesablanır və hesablanma tarixindən 2 ay müddətədək ödənilir. Cari ödənişlərlə yekun vergi öhdəliyi arasındakı fərqə tətbiq olunan faizlər vergi ilinin sonundan hesablanır. 01.01.2012-ci il tarixdən faiz hesablanması vergi ilindən sonrakı təqvim ilinin 1 iyul tarixindən hesablanır. 5 il müddətində qanunvericiliyin tələblərinə uyğun olaraq əlavə qiymətləndirmə həyata keçirilə bilər. Xaricdən əldə olunan gəlirlərə münasibətdə 12 il ərzində əlavə vergi qiymətləndirilməsi mümkündür. Əlavə qiymətləndirmə faiz və cərimələr daxil olmaqla yekun vergi hesablamasının 100%-ə qədər hissəsini əhatə edə bilər. Bu cür cərimələr gəlirdən çıxılmır.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Öz ehtirasını təmin etmək üçün başqasına əziyyət vermək, onu incitməkdən ibarət psixi pozğunluq; 2.Rusiya Federasiyasının Xantı-Mansiysk Muxtar Dairəsində çay; 3.Səhmdar cəmiyyətə təsisçilər tərəfindən səhmlərin dəyərinin ödənişi əvəzində təqdim edilən (verilən) əmlak; 4.İnduizmdə müharibə tanrısı; 5.Qərb yarımkürəsində tropik dəniz; 6.İlk dəfə 1960-cı ildə Çexoslovakiyada istehsal olunmuş qazlı alqokolsuz içki; 9.Azərbaycan musiqi tarixində ilk romansların və uşaqlar üçün musiqi əsərlərinin müəllifinin adı; 13.Azərbaycan musiqili komediya sənətinin inkişafında mühüm xidmətləri olmuş bəstəkarın adı; 15.Almaniyada şərab istehsalı üçün yetişdirilən üzüm növlərindən biri; 16.Yakut mifologiyasında balıqların qoruyucu ruhu; 17.Düşmənə zərbə endirmək məqsədilə qoşunların və ya donanmanın bir yerdən başqa yerə hərəkəti və toplanması; 18.Əsərlərində, məktublarında adını gizlədən müəllif; 20.Cütdırnaqlılar dəstəsinə aid fəsilə və həmin fəsiləni təmsil edən heyvan; 21.Böyük Antil adalarında ölçüsünə görə ikinci iri ada. **Soldan sağa:** 1.Bir dilə xas olan cümlə quruluşu və cümlədə sözlərin birləşməsi üsulu; 5.ABŞ-ın Minnesota ştatında şəhər; 7.Xarici dövlətlərlə əlaqə saxlamaq və yaxud müzakirələr aparmaq üçün hər hansı dövlət tərəfindən vəkil edilmiş vəzifəli şəxs; 8.«O olmasın, bu olsun» filmində Sərvər obrazını canlandıran aktyorun adı; 10.İsmayıllı rayonunda kənd; 11.Səs ölçü vahidi; 12.Türk mifologiyasında yaradıcı və baş Tanrı; 14.Mis üzərində iynə ilə cızılmış və sonra basma üsulu ilə yaranmış qravüra; 19.Ortaq ideya ətrafında birləşən və ümumi maraqlara, mülkiyyətə, ehtiyatlara, ortaq gəlirə və iş yerinə sahib insanların birlikdə yaşamağa qərar verdikləri icma növü; 21.«Dədə Qorqud» filmində Dədə Qorqud obrazını canlandıran aktyorun adı; 22.Türkiyənin pul vahidi; 23.Coğrafi qütbləri yer səthindən keçməklə birləşdirən ən qısa xətt; 24.At ayaqqabısı; 25.İngiltərənin Qərbində böyük şəhər.



*«O olmasın bu olsun» filmindən epizod. Sərvər və Gülnaz.*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Feyxoa; 2.Lambada; 3.Nənni; 4.Rialto; 5.Furye *(Jan Batist Jozef)*; 6.Vazari *(Corco)*; 9.Duet; 13.Lalə; 15.Mariott *(Edm)*; 16.Vestel; 17.Kvorum; 18.Dekabr; 20.Salem; 21.Tokio. **Soldan sağa:** 1.Filantrop; 5.Fav; 7.Yamantau; 8.Araz; 10.Okapi; 11.Taumetr; 12.Yallı; 14.Ştamp; 19.Eksklav; 21.Turne; 22.Tala; 23.Fruktoza; 24.Lim; 25.Komposter.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev
anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 14000**

idman

# Azərbaycan velosipedçisinin nüfuzlu turnirdə qələbəsi

*Fransada Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) velosiped idmanının trek növü üzrə 1-ci kateqoriyalı «Fenioux Piste International» turnirinə yekun vurulub.*

Yarışın ilk günündə keyrin növündə çıxış edən Azərbaycan yığma komandasının üzvü Olqa İsmayılova bütün rəqiblərini qabaqlamaqla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Digər idmançımız Nicat Niftəliyev isə həm omniumda, həm də sprintdə 9-cu nəticə göstərib.

Yarışın ikinci günündə də Azərbaycan yığma komandasının lideri O.İsmayılova turnirin ən güclüsü olduğunu növbəti dəfə sübut edib. O, 200 metr məsafəyə sprint yürüşündə də qarşısıalınmaz olub. Bununla da velosipedçimiz «Fenioux Piste International» turnirində ikinci qızıl medala yiyələnib.




# «Azərbaycanda idman sahəsində fantastik işlər görülür»

***«2015-ci il dünya velosiped idmanı həyatında kifayət qədər fəal dövr kimi yadda qalacaq və siz də bu proseslərin içində olacaqsınız».***

Bu sözləri Avropa Velosipedçilər İttifaqının (UEC) vitse-prezidenti Aleksandr Qusyatnikov deyib: «Bildiyiniz kimi, uzun illərdir ki, şose velosipedi üzrə Elit yaş kateqoriyasında Avropa çempionatı keçirilmir. Bunu onunla əlaqələndirirdilər ki, dünyanın ən güclü velosipedçiləri Avropada toplaşdığından qitə çempionatının təşkili dünya çempionatının nüfuzuna xələl gətirə bilər. Amma Avropa Velosiedçilər İttifaqının rəhbərliyində edilən dəyişiklikdən sonra 2016-cı ildən etibarən Elit yaş qrupunda Avropa çempionatının bərpası qərara alınıb. Bu səbəbdən də Avropa Oyunlarında gələnilki qitə çempionatının cizgiləri özünü qabarıq şəkildə büruzə verəcək».

A.Qusyatnikov «Bakı-2015» ilk Avropa Oyundarının yüksək səviyyədə təşkil ediləcəyinə əminliyini bildirib: «2014-cü ildə keçirilən «Tour d'Azerbaidjan» veloyürüşü zamanı sonuncu mərhələ paytaxt Bakı küçələrində təşkil edildi və bu variant UEC tərəfindən də böyük dəstək qazandı. Builki yarışın 5-ci mərhələsi də eyni marşrut üzrə olacaq və Avropa Oyunları üçün bu variant tam təsdiqlənəcək. Gözəl şəhər küçələrində yarışmağı kim istəməz? Beynəlxalq standartlara cavab verən Bakı dağ velosiedi parkı artıq hazırdır, BMX stadionunda isə işlər yekunlaşmaq üzrədir.

Ümumiyyətlə, Azərbaycanda idman sahəsində fantastik işlər görülür. «Tour d'Azerbaidjan» veloyürüşü zamanı rayonlarda bunun bir daha şahidi oldum. Prezident İlham Əliyevin idmana, o cümlədən velosipeddə göstərdiyi qayğı, Azərbaycan Velosiped İdmanı Federasiyasının gördüyü işlər Avropa Velosipedçilər İttifaqını çox sevindirir».

# Güləşçilərimiz Fransadan 14 medalla qayıtdılar

*Paris şəhərində güləş üzrə ikinci Beynəlxalq «Qran-pri» turniri başa çatıb. Yarışda iştirak edən Azərbaycan idmançıları 14 medal qazanıblar.*

Turnirdə 30 ölkədən 400-ə yaxın idmançı sərbəst, yunan-Roma, habelə qadın güləşi üzrə gücünü sınayıb. Hər üç güləş növü üzrə Azərbaycanı 25 idmançı təmsil edib.

Qadın güləşçilərimiz ilk yarış günündə 2 gümüş medal qazanıblar. Alyona Kolesnik (55 kq) və Nataliya Sinişin (60 kq) yalnız final görüşündə uduzaraq fəxri kürsünün ikinci pilləsində qərarlaşıblar.

Yunan-Roma güləşçilərimiz ilk yarış gününü 1 qızıl, 1 gümüş və 1 bürünc medalla başa vurublar. 80 kiloqramda mübarizə aparan Elvin Mürsəliyev bütün rəqiblərindən üstün olub. 66 kiloqramda yarışan Kamran Məmmədov finala qədər Portuqaliya, Macarıstan, Avstriya və Polşa güləşçilərini məğlub edib. Final görüşündə Polşanın başqa bir təmsilçisi ilə görüşü məğlub başa vurub və gümüş medalla kifayətlənib. Orxan Nuriyev (98 kq) mübarizəyə Avstriya güləşçisi üzərində qələbə ilə başlasa da, növbəti görüşdə estoniyalı rəqibinə uduzub. Ancaq rəqibinin finala yüksəlməsi güləşçimizə bürünc medal uğrunda yarışmaq şansı verib. O, həlledici görüşdə İsveç təmsilçisi Robert Avanesyanı vaxtından əvvəl üstələyərək bürünc medala sahib olub.

Paris «Qran-pri» turnirinin ilk günündə sərbəst güləşçilərimiz 2 qızıl və 2 bürünc medal qazanıblar. 65 kq çəki dərəcəsində mübarizə aparan Məhəmməd Müslümov və 97 kiloqramda yarışan Olimpiya çempionu Şərif Şərifov bütün rəqiblərini mübarizədən kənarlaşdırıb və turnirin qızıl medalına sahib olublar. Bürünc medalları isə yığmamıza Hacı və Yaşar Əliyev qardaşları qazandırıblar. Hacı Əliyev (65 kq) həlledici görüşdə Macarıstandan olan rəqibini məğlub edib. Yaşar Əliyev (57 kq) isə komanda yoldaşı Mircəlal Həsənzadədən üstün olub.

Bununla da Beynəlxalq «Qran-pri» turnirinin ilk günündə güləşçilərimiz ümumilikdə 3 qızıl, 3 gümüş və 3 bürünc olmaqla 9 medal qazanıblar.

Yarışların ikinci günündə - fevralın 1-də qadın idmançılarımız bir bürünc, yunan-Roma üzrə güləşdə isə idmançılarımız iki bürünc qazanıblar.



Finala vəsiqə qazanan Camaləddin Məmmədov 125 kq çəki dərəcəsində kiçik üstünlüklə ukraynalı güləşçiyə məğlub olub və gümüş medalla kifayətlənib. Onun komanda yoldaşı Ruslan Dibirhacıyev isə bürünc medala sahib olub.

mozaika

## Boğazınız ağrıyırsa...

sağlam həyat tərzi

*Qışın gətirdiyi sağlamlıq problemlərindən biri də boğaz ağrısıdır. Bundan xilas olmağın təsirli çarələrindən biri də bitkilərdən düzgün istifadə etməkdir.*

**Adaçayı.** Bu bitkinin yarpaqlarının tərkibindəki uçucu komponentlər sayəsində ağız və boğaz iltihablarını (faringit, jinjivit kimi) aradan qaldırmaq olar. Bişirilmədən, çay şəklində dəmlənən adaçayı ilə qarqara edilir.

**Mixək.** Hər bir mətbəxin baş tacı olan mixək ağız və boğaz infeksiyalarına qarşı möcüzəli təsiri ilə tanınır. Tərkibindəki uçucu xassəli öjenol sayəsində boğaz yanmasının qarşısını alan mixəkdən ağız, boğaz infeksiyalarında antiseptik və ağrını yumşaldan vasitə kimi istifadə edilir. Təbabətdə mixək yağının istifadə edildiyi antibiotiklərin təsiri daha güclüdür. Alimlər belə qənaətə gəlib ki, mixək yağının uçucu xüsusiyyəti antibiotiklərin təsirini artırır. Mixəyin, xüsusilə öjenol daşıyan Seylon darçını çubuğu ilə birlikdə çay kimi içilməsi, ya da mixək dəmləməsi ilə qarqara edilməsi məsləhət görülür.

**Çökə.** Araşdırmalar çökə ağacının tərkibindəki komponentlərdən bəzilərinin (flavonoit) iltihablara qarşı faydalı olduğunu və ağrıkəsici təsir göstərdiyini sübut edib. Bəzi komponentlərin (müsilaj) isə boğazı yumşaldaraq soyuqdəymə şikayətlərini azaltdığı bildirilir.

**İstiot.** Dənəvər və ya toz halındakı istiotdan hazırlanan çayla qarqara etmək boğaz infeksiyasının qarşısını almağa yardım edir. İstiot immunitet sistemini tənzimləyir, yanğı və spazmalara islahedici təsir göstərir.

**Zəncəfil.** Soyuqdəymə və öskürəyə qarşı təsirli olan bu bitki həzm sistemi xəstəlikləri üçün də olduqca faydalıdır.

**Ekinezya (koni çiçəyi).** Üst tənəffüs yolu xəstəliklərinə qarşı təsirlidir. Klinik araşdırmalar bu bitkinin immunitet sistemini möhkəmləndirdiyini və bədəni soyuqdəymədən qoruduğunu sübut edib. Tərkibində ekinezya olan məhsulların soyuqdəymə nəticəsində güclənən viruslara öldürücü təsiri var. Bu bitki iltihabın (sitokinler) sonrakı fəsadlarının da qarşısını alır, boğaz və ağ ciyərlərdə yarana biləcək ağırlaşmaya mane olur.

**Diqqət!**
Boğazınız ağrıyarkən qətiyyən siqaret çəkməyin və siqaret çəkilən mühitdə olmayın. Oturduğunuz otağın havasını tez-tez dəyişin.

## Bakıdakı muzey Ginnesin «Rekordlar kitabı»nda...

maraqlı



«İçərişəhər» Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən Miniatür Kitab Muzeyi miniatür kitabların dünyada ən böyük kolleksiyası kimi Ginnesin «Rekordlar kitabı»na daxil edilib. Muzeyin təsisçisi və yaradıcısı, respublika «Kitab» cəmiyyətinin idarə heyətinin sədri, əməkdar incəsənət xadimi Zərifə Salahova bildirib ki, 30 ildən artıq müddətdə formalaşmış kolleksiya bu gün də yeni nüsxələrlə zənginləşir.

Muzeydəki 38 şüşə vitrində dünyanın 66 ölkəsində nəşr edilmiş 5600-dən çox miniatür kitab sərgilənir. Burada ən nadir eksponatlar sırasına Yaponiyanın Tokio şəhərindəki «Toppan» nəşriyyatında buraxılmış dörd mikrokitab (onlardan biri 0,75x0,75mm formatında, üçü 2x2 mm formatındadır), habelə Almaniyada hazırlanmış dörd mikrokitab (bu nəşrlərdən biri 2,0x2,9 mm formatında, qalan üçü 3,5x3,5mm formatındadır) daxildir.

Muzeydə saxlanılan miniatür kitab nüsxələrindən 2913-ü bütün tələblərə tamamilə uyğun gəlir. Məsələn, bu kitabların ölçüləri 75x75 mm-dən çox deyil - miniatür kitabın müasir standartı məhz belədir. Kitabların xeyli hissəsinin ölçüləri 100x100 mm-dən çox deyil. Bu da keçmiş SSRİ-də miniatür kitab standartlarına uyğundur.

2015-ci il yanvarın 21-də Ginnesin «Rekordlar kitabı»nın rekordlar üzrə menecerlər komandasından alınan məlumata görə, muzeyin sifarişi qəbul edilib və o, miniatür kitabların dünyada ən böyük kolleksiyası hesab olunub. Yaxın vaxtlarda Zərifə Salahovaya «Guinness World Records» sertifikatı təqdim ediləcək.

Xatırladaq ki, bundan əvvəl miniatür kitabların ən böyük kolleksiyası Nikuncu R.Vaqadinin kolleksiyası hesab edilirdi. Bu şəxs 258 adda müxtəlif miniatür kitab toplamağa müvəffəq olmuşdu...

ekologiya

## Xəzərin səviyyəsi... enir

*Xəzər dənizi qapalı hövzə olduğundan burada vaxtaşırı olaraq səviyyə dəyişmələri baş verir.*



Ekologiya və Təbii Sərvətlər Nazirliyindən (ETSN) mətbuata verilən məlumata görə, dəniz səviyyəsinin dəyişməsində başlıca amil onun hövzəsinin iqlimi hesab edilir. Belə ki, Xəzər dənizinin su balansının gəlir hissəsinin təqribən 80 faizini təşkil edən Volqa, Ural, Samur, Kür, Terek, Səfidrud və digər çayların hövzələrində baş verən iqlim tərəddüdləri burada suyun səviyyəsinin artıb-azalmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

Azərbaycanda dəniz səviyyəsi üzərində müşahidələrə XIX əsrin birinci yarısında (Bakı məntəqəsi - 1830-cu il) başlanılıb. Hazırda Xəzər dənizinin Azərbaycan Respublikasına aid olan hissəsində (sahildə, açıq dənizdə, adalar və estakadalarda) ETSN-in Milli Hidrometeorologiya Departamentinin 13 hidrometeoroloji müşahidə məntəqəsi fəaliyyət göstərir ki, bunların 7-də dəniz səviyyəsi üzərində müşahidələr aparılır.

Ötən əsrin ikinci yarısında Xəzər dənizində müşahidə olunmuş səviyyə tərəddüdləri müvəqqəti xarakter daşıyıb. Belə ki, 1977-ci ildə dənizin səviyyəsi XX əsrdə müşahidə olunmuş ən aşağı həddə, Baltik sistemi ilə 29 metrə qədər azalıb, sonradan dənizdə suyun səviyyəsi qısa tarixi dövr ərzində (1977-1995) 2,5 metr artaraq 26,5 metrə çatıb. 1995-ci ildən isə dənizin səviyyəsində yenidən azalma müşahidə olunmağa başlayıb.

Təkcə son 7 il ərzində Xəzər dənizinin səviyyəsi 0,56 metr azalıb və 2014-cü il üçün dəniz səviyyəsinin orta illik qiyməti Baltik sistemi ilə 27,43 metr olub.

Çoxillik səviyyə tərəddüdlərindən başqa, dəniz səviyyəsinin fəsillərin dəyişməsi ilə xarakterizə olunan illik tərəddüdləri də müşahidə olunur ki, bu da ilin isti aylarında çayların sululuğunun artması hesabına dəniz səviyyəsinin qalxması, qış aylarında isə enməsi ilə özünü göstərir.

## Dünyanın ən isti ili

*Meteoroloji müşahidələr tarixində ötən il dünyanın ən isti ili olub.*



BBS-nin məlumatına görə, ötən il su və havanın orta temperaturu müntəzəm meteoroloji qeydlərin aparıldığı 1880-ci ildən bəri ən yüksək həddə çatıb. Bu barədə NASA və Milli Okean və Atmosfer Administrasiyasının hesabatında bildirilib.

Rekord temperatur bir çox Avropa ölkələrində, eləcə də Avstraliya və ABŞ-da qeydə alınıb. Ümumdünya Meteorologiya Təşkilatının nümayəndələri bildiriblər ki, 2014-cü ilin yanvar-oktyabr aylarında planetdə havanın temperaturu orta göstəricidən 0,57 dərəcə yüksək olub.

**Müdriklər deyib ki...**



***«Bəşəriyyətin tarixi əsas etibarilə ideyaların tarixindən ibarətdir».***
***Herbert Corc Uels (1866-1946)***